Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

# Kitabxanalarda Heydər Əliyev irsinin və azərbaycançılıq ideyasının təbliği

**BAKI - 2013**

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Milli Kitabxananın yaranmasının 90 illiyinə
həsr edilmişdir*

# Kitabxanalarda Heydər Əliyev irsinin və azərbaycançılıq ideyasının təbliği

***Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik tövsiyələr***

**BAKI - 2013**

**Tərtibçi:** N.Alışova

**İxtisas redaktoru və buraxılışa məsul:** **K.M.Tahirov,**
*tarix üzrə fəlsəfə doktoru,*
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **G.Səfərəliyeva**

**Kitabxanalarda Heydər Əliyev irsinin və Azərbaycançılıq ideyasının təbliği**: metodik tövsiyələr /tərt. ed. N.Alışova; ixtisas red. və bur. məs. K.Tahirov; red. G.Səfərəliyeva; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2013.- 59 s.

**© M.F.Axundov adına Milli Kitabxana, 2013**

# Giriş

Hər bir xalq görkəmli şəxsiyyətləri ilə tanınır. Onlar xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirir. Heydər Əliyev Azərbaycan tarixinin yetişdirdiyi ən nadir simalardan biri, türk dünyasının və ümumən sivil dünyanın qüdrətli şəxsiyyətlərindən biridir. Tarixə Azərbaycan xalqının ümummilli lideri kimi daxil olmuş bu əvəzolunmaz insan liderlərə məxsus ən ali keyfiyyətlərə malik idi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinin keçirilməsi məqsədilə ölkə prezidenti cənab İlham Əliyev yanvar ayının 21-də "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" Sərəncam imzalamışdır. (Bax: Əlavələr)

Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan bu gün dünya miqyasında sivil, hüquqi, demokratik, dünyəvi bir respublika kimi tanınır və böyük perspektivlərə malik bir ölkə kimi qəbul edilir. Heydər Əliyevin birbaşa rəhbərliyi və qayğısı sayəsində Azərbaycanda XX əsrin 70-80-ci illərində milli özünüdərkin yüksəlişi başlanmış, yazıçı və şairlərin əsərlərində milli ruha, millət və xalq anlayışlarına, Azərbaycan dili ilə bağlı məsələlərə önəm verilmiş, dünya azərbaycanlılarının təşkilatlanması, soydaşlarımızla Azərbaycan arasında əlaqələrin qurulması istiqamətində xeyli işlər görülmüşdü. Respublikamız dövlət müstəqilliyini bərpa etdikdən sonra isə milli birliyin təminatı, dünya azərbaycanlılarının vahid milli mənafe ətrafında birləşməsi dövlət quruculuğunun əsas vəzifələrindən biri kimi ortaya çıxmışdı. Azərbaycan dinindən, irqindən, milli mənsubiyyətindən asılı olmayaraq hər bir azərbaycanlının vətənidir. Dünyada yaşayan bütün azərbaycanlıların birliyi bu gün bir sıra problemlərin, xüsusən də Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsinə müsbət təsir edə bilər. Dünya azərbaycanlılarının birliyini təmin edə biləcək ən mühüm və təsirli

vasitə isə vahid ideologiyanın olmasıdır. Bunu çox gözəl anlayan ulu öndər Heydər Əliyev xalqı bir ideya, bir məqsəd ətrafında birləşdirmək üçün məhz "Azərbaycançılıq" ideologiyasını seçmişdi.

İdeologiya xalqın milli-mənəvi varlığının ilkin əlamətlərindən olub, xalqın kimliyini əks etdirən təfəkkür, adət və inanclar sistemidir. Dil, ərazi, din və ideoloji birlik xalqın, millətin və dövlətin tarixi varlığının əsas atributlarıdır.

Bütün sahələrdə olduğu kimi kitabxana işi sahəsində də qəbul edilmiş rəsmi sənədlərdə ulu öndər Heydər Əliyev irsinin və milli ideologiyanın təbliğinə xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli Sərəncamı ilə imzalanmış "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın ayrı-ayrı bəndlərində ulu öndər Heydər Əliyevin unikal dövlət və mədəni quruculuq təcrübəsinin, intellektual və mənəvi irsinin respublikanın və dünyanın rəqəmsal irs fondlarına daxil edilməsi (2.2.2), ümummilli lider Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" çoxcildli kitabının biblioqrafik göstəricisinin və elektron nəşrinin hazırlanması (2.6.9), ümummilli lider Heydər Əliyev haqqında ən çox soruşulan kitabların informasiya daşıyıcılarına köçürülməsi (2.6.12), ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi ilə əlaqədar "Heydər Əliyev Mərkəzi – Milli yaddaşımızın Mərkəzidir" mövzusunda Bakıda kitabxanaçıların beynəlxalq simpoziumunun təşkili (2.8.2) və Azərbaycanşünaslıqla bağlı məlumat bazasının yaradılması göstərilmiş və bu sahədə qarşıda duran aşağıdakı problemlər qeyd edilmişdi: Azərbaycanşünaslığı inkişaf etdirmək məqsədilə ölkəşünaslıq və diyarşünaslığa dair materiallarla fondların zənginləşdirilməsi (2.1.2); ölkəşünaslığa (Azərbaycanşünaslığa) dair Rusiya Dövlət Kitabxanasında, Rusiya Milli Kitabxanasında, Kazan, Tbilisi şəhərlərində və digər milli kitabxanalarda saxlanılan ədəbiyyatın (o cümlədən dövri mətbuatın) müəyyənləşdirilməsi

və onların çatışmayan nüsxələrinin Azərbaycan Respublikasına gətirilməsi məqsədilə layihələrin həyata keçirilməsi (2.1.6); Dünyanın böyük kitabxana mərkəzlərində saxlanılan Azərbaycana aid diyarşünaslıq (ölkəşünaslıq) xarakterli qiymətli və nadir kitabların (əsli yaxud surəti və elektron variantı) "Heydər Əliyev Mərkəzi"ndə toplanması (2.2.47) xüsusi olaraq qeyd olunmuşdur.

Ulu öndər Heydər Əliyev irsinin və azərbaycançılığın təbliği ilə bağlı kitabxanaçıların üzərinə bir sıra mühüm vəzifələr düşür və bu istiqamətdə bütün vasitələrdən istifadə olunmalı, təbliğatın ən müxtəlif üsulları həyata keçirilməlidir. Kitabxanaya daxil olan sənədlər növündən (çap və ya elektron) asılı olmayaraq vaxtında seçilməli, sistemləşdirilərək tələbatçılara çatdırılmalıdır.

Təqdim olunan vəsaitdə ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideyasının inkişafında xidmətləri ilə əlaqədar kitabxanalarda həyata keçirilən kütləvi tədbirlər haqqında tövsiyələr öz əksini tapmışdır.

Nəşrlə bağlı rəy və təkliflərini Milli Kitabxanaya göndərən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Ünvan:** AZ-1000 Bakı şəh., Xaqani küç. 29;
**E-mail:** metodik@anl.az

# Heydər Əliyev və azərbaycançılıq ideyası

Qədim dövrlərdən başlayaraq bugünə kimi Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini, polietnik zənginliyini özündə yaşadan və birləşdirən baxışlar sisteminin əsasında ***azərbaycançılıq*** ideyası təşəkkül tapmışdır. Azərbaycan tarixən çoxmillətli ölkə, milli və dini tolerantlığın bərqərar olduğu məkan kimi tanınmış və bu üstün cəhətlər azərbaycançılıq məfkurəsinin əsasını təşkil etmişdir. Böyük mütəfəkkirlərin, dövlət adamlarının, ictimai xadimlərin fəaliyyətində bu ideya zaman-zaman özünü göstərmişdir.

Belə ki, xalqımız dünyaya Zərdüştü və "Avesta" kitabını, "Kitabi-Dədə Qorqud"u və qorqudçuluq məfkurəsini, "Koroğlu"nu bəxş etmişdir ki, bunlar da bir tərəfdən ümumazərbaycançılıq məfkurəsinin, məxsusi birgə dəyərlərin, ümumi düşüncə və ictimai davranış tərzinin formalaşması və adət-ənənə sisteminin bərqərar olmasına təkan vermiş, digər tərəfdən isə Şərqin oxşar mənəvi dünyasının əsaslarının qurulmasında mühüm rol oynamışdır. Milli ideya, milli estetik düşüncə böyük Azərbaycan klassiklərindən N.Gəncəvinin, İ.Nəsiminin, M.Füzulinin yaradıcılığında, XVII-XVIII əsrin şıfahi xalq ədəbiyyatında, məhəbbət və qəhrəmanlıq dastanlarında getdikcə daha geniş təzahür etmişdir.

Sonrakı dövrlərdə Şah İsmayıl Xətainin yaradıcılığının ana xəttini təşkil edən Azərbaycançılıq ideyası XIX əsrin sonu - XX əsrin əvvəllərində fəaliyyət göstərmiş milli maarifçilərin də yaradıcılığına öz təsirini göstərmiş, inkişaf etmiş, təkmilləşmiş və sistemli bir milli ideyaya çevrilmişdir.

Sovet Azərbaycanı dövründə də azərbaycançılıq ideyası inkişaf etmiş, bu ideyanın təbliği ilə əlaqədar bir sıra idarə və müəssisələr yaradılmış, 1923-cü ilin əvvəllərində Azərbaycan Tarix muzeyi, Azərbaycan Maddi-Mədəniyyət Abidələrini Mühafizə edən Komitə, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti fəaliyyətə başlamışdır. 1924-cü ildə vətənpərvər

ziyalılar Azərbaycanşünaslıq kursu yaratmışlar. 1924-cü il sentyabr ayının 21-də Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti Bakı şəhərində I Ümumazərbaycan ölkəşünaslıq qurultayı çağırmışdır. Qurultayın işində görkəmli Azərbaycan yazıçısı, ictimai-siyasi xadim N.Nərimanov da iştirak etmişdir. Qurultay gənclərin, xüsusən məktəblilərin ölkəşünaslıq işinə cəlb edilməsini bəyənmiş və bu sahədə görüləcək işlər genişləndirilmişdir.

Azərbaycançılıq ideologiyası XX əsr boyu mürəkkəb bir inkişaf yolu keçmişdir. Azərbaycan mütəfəkkirləri həmin ideologiyanın təkmilləşməsi, azərbaycanlıların şüurunda möhkəm yer tutması üçün sadəcə çalışmamış, zəngin tarixi olan bir mücadilə vermişlər. Lakin azərbaycançılığın ümummilli ideya halına gəlməsi, bütün dünya azərbaycanlılarını birləşdirən məfkurəyə, müstəqil Azərbaycan dövlətinin ideyasına çevrilməsi məhz Heydər Əliyevin tarixi xidmətlərinin nəticəsidir.

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının tarixinə və taleyinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür. Böyük öndər Azərbaycanın tərəqqi və inkişaf yolunu bir dövlət olaraq dahiliklə müəyyənləşdirmiş, milli-mənəvi dəyərlərimizin, müstəqil dövlətçiliyimizin konseptual əsaslarını işləyib hazırlamış, köhnə stereotiplər çərçivəsini dağıdaraq milli ruhun, milli ideologiyanın yüksəlişinə təkan vermişdir.

2003-cü ilin oktyabrında Azərbaycan xalqına, müraciətində Heydər Əliyev öz həyat fəlsəfəsini, fəaliyyət prinsiplərini belə açıqlamışdır: "Mənim Azərbaycan Respublikasına bütövlükdə rəhbərliyimin 34, müstəqil Azərbaycan dövlətinə prezident kimi rəhbərliyimin isə 10 ili tamam olur. Bu illərdə istər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, prezidenti kimi mənim həyat amalım yalnız sizə – bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına

xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib.” Heydər Əliyev xalqını bu cür yüksək qiymətləndirir, millətinə xidməti ən böyük xoşbəxtlik kimi dəyərləndirirdi. Uzun illər Azərbaycana rəhbərlik etməsinin özü Heydər Əliyev şəxsiyyətində formalaşan, müstəqilliyə və xalqına sədaqət, millilik və vətənə məhəbbət hissindən qaynaqlanan inamın təzahürüdür.

Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın müstəqilliyini möhkəmləndirməklə, onun güclü dövlətçilik xəttini, siyasi-iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli inkişafının ideya təməli olan konsepsiyanın – azərbaycançılığın ideyasının inkişafına xüsusi fikir vermişdir.

Ümummilli liderimiz Heydər Əliyev azərbaycançılıq anlayışını məzmun baxımından çox yüksək qiymətləndirmiş, onun əsas prinsiplərinin “dövlətçilik” və “milli vətənpərvərlik”dən ibarət olduğunu dəfələrlə vurğulamışdır: “Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən azərbaycançılıqdır. Dövlətçilik, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər - bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissələridir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaq və möhkəmləndirməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə hər bir vətəndaş vətənpərvərlik hissləri ilə yaşamalıdır və bizim bütün təbliğatımız Azərbaycanda dövlətçiliyi inkişaf etdirmək üçün hər bir vətəndaşda milli vətənpərvərlik hisslərini yaratmalıdır”.

Heydər Əliyevin azərbaycançılığı ümummilli ideologiya olaraq irəli sürməsi onun Azərbaycan dövlətçiliyi naminə göstərdiyi böyük tarixi xidmətlərdən biridir. Məhz azərbaycançılıq məfkurəsi Azərbaycana qarşı bir çox istiqamətlərdən yönələn

təhdidlərin, ölkəmizi etnik bölücülük əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər olmuşdu.

Müstəqillik yollarında ilk addımlarını atan hər bir dövlətin qarşısında dayanan həlli vacib məsələləri önə çəkərkən ulu öndər Heydər Əliyev milli birliyi, həmrəyliyi xüsusi vurğulamışdı. Xarici siyasətin əsas tərkib hissələrindən biri kimi dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında sıx birliyi mühüm vəzifə kimi qarşıya qoyulmuşdu. Ulu öndərin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə biri-birindən çətin, o dövrdə həyati əhəmiyyətli məsələlərin həlli üçün vacib olan xalqın birlik və həmrəyliyinin təminatı konsepsiyası hazırlanmışdı.

2001-ci il noyabr ayının 9-10-da ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi ilə soydaşlarımızın həmrəyliyi bir daha təmin edilmişdi, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında əsas amil olan diasporun təşkilatlanması üçün hüquqi bazanın əsası qoyulmuş, görüləcək işlərin bir mərkəzdən idarə olunması üçün Diasporla İş üzrə Dövlət Komitəsi yaradılmışdı.

Ümummilli liderin 2001-ci ilin noyabrında Bakıda Dünya Azərbaycanlılarının I Qurultayında bəyan etdiyi tezislər əslində azərbaycançılığın, Azərbaycan təəssübkeşliyinin ən lakonik ifadəsi idi: "Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı yaşatmalıyıq".

Əminliklə qeyd etmək olar ki, bu nəcib arzu bu gün uğurla həyata keçməkdədir. Ulu öndər Heydər Əliyevin milli birlik və azərbaycançılıq ideyaları bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının rəhbərliyi ilə Azərbaycan Respublikası sürətlə inkişaf edərək, cəmiyyət və dövlət həyatının bütün sahələri müasir dünya standartları əsasında qurularaq Cənubi Qafqaz bölgəsinin lider dövlətinə və bütün dünya azərbaycanlılarının qürur yerinə çevrilmişdir. Xarici ölkələrə səfərləri zamanı soydaşlarımızla görüşlərə xüsusi diqqət ayırması, Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində xaricdəki soydaşlarımızı daha fəal olmağa çağırması, azərbaycançılıq ideologiyasının soydaşlarımızın mənəvi-siyasi birliyinin əsas istinad nöqtəsinə çevrilməsi istiqamətində məqsədyönlü işlərin aparılması bu istiqamətdə həyata keçirilən siyasətin uğurlu davamının göstəricisidir.

Azərbaycançılıq ideyasının təbliğində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın gördüyü işlər Azərbaycan mədəniyyətinin, tarixinin təbliğinə böyük töhfədir. Azərbaycanın zəngin mədəni irsinin beynəlxalq səviyyədə layiqincə təqdim olunması nəticə etibarilə ölkəmizin beynəlxalq nüfuzuna xidmət edir. İki nüfuzlu beynəlxalq təşkilatın xoşməramlı səfiri kimi Mehriban xanım Əliyeva bu istiqamətdə neçə-neçə irimiqyaslı layihələr həyata keçirmişdir. Azərbaycanın maddi və qeyri-maddi mədəni abidələri artıq YUNESKO-nun Dünya irsi siyahısındadır. YUNESKO tərəfindən İçərişəhər dünyanın ən gözəl abidələri siyahısına, Azərbaycan muğamı isə Qeyri-maddi mədəni irs siyahısına salınmışdır. Eyni zamanda YUNESKO ilə birlikdə qaçqın və məcburi köçkün uşaqlar üçün mühüm təhsil layihələri, “Atəşgah” məbədinin bərpası, Qobustanın Dünya mədəni irs siyahısına salınması kimi layihələr və s.də hazırlanmışdır.

“Bizim ən böyük sərvətimiz bizim mədəni irsimizdir. Bizim ədəbiyyatımız, poeziyamız, musiqimiz, təkrarsız, nadir xalçaçılıq məktəbimiz, təsviri sənətimiz, memarlıq abidələrimizdir. Bu mədəni irs bizi millət kimi bütün dünyada tanıtdırır. Bu gün bu mədəniyyəti qorumaq, saxlamaq, təbliğ etmək hər birimizin mənəvi borcudur”- deyən Azərbaycanın birinci xanımının bu nəsihətamiz sözləri hər bir ləyaqətli soydaşımızın milli məfkurəsinin əsasını təşkil edir və etməlidir.

## Kitabxanalarda Heydər Əliyev irsinin və azərbaycançılıq ideyasının təbliği

2013-cü il Azərbaycanda dövlət səviyyəsində qeyd edilən bir sıra yubileylərlə əlamətdar olacaq. Belə yubileylər sırasında ən əlamətdar olanı - xalqımızın ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyidir.

Ulu Öndərin 90 illik yubileyi ilə bağlı olaraq il ərzində keçiriləcək tədbirlərin böyük bir hissəsi azərbaycançılıq ideyasının banisi ümummilli lider Heydər Əliyev irsinin təbliğinə həsr olunmalıdır.

Müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətlərini nəzərə alaraq, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz töhfələr vermiş Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinin ölkə miqyasında layiqincə keçirilməsini təmin etmək məqsədilə Prezident İlham Əliyev yanvar ayının 21-də "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" sərəncam imzalamışdır. (Bax: Əlavələr) Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir. Heydər Əliyevin zəngin irsinin, dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin xüsusən formalaşan gənc nəsil tərəfindən öyrənilməsində kitabxanaçıların üzərinə bir sıra vəzifələr düşür.

Heydər Əliyev irsini və Azərbaycançılığı təbliğ etmək üçün qarşıda duran vəzifələrdən biri kitabxanaların fondunu Heydər Əliyev irsi və azərbaycançılıq haqqında ədəbiyyatla komplektləşdirməkdən və müvafiq soraq-biblioqrafiya aparatını təşkil etməkdən ibarətdir. Nəşriyyatlar, kitab mağazaları ölkəşünaslıq ədəbiyyatının nəşrini, yayılmasını və təbliğini həyata keçirdikləri üçün kitabxanaçıların onlarla əlaqəli işləməsi vacibdir.

Hər bir kitabxana Heydər Əliyev irsinin təbliğini asanlaşdırmaq üçün "Heydər Əliyev-90", "Heydər Əliyev və azərbaycançılıq", "Müstəqil dövlətçiliyimizin banisi-Heydər Əliyev" və s. adlı kartotekalar hazırlamalı və mövcud rubrikaları zənginləşdirməlidir. (Məsələn "Heydər Əliyev və Azərbaycan tarixi", "Heydər Əliyev və Azərbaycan mədəniyyəti", "Heydər Əliyev və müasir Azərbaycan", "Heydər Əliyev və insan hüquqları", "Heydər Əliyev və milli mədəni dəyərlərimiz", "Heydər Əliyev və azərbaycançılıq"). Kartotekaları müntəzəm olaraq yeni materiallarla zənginləşdirmək lazımdır.

Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi ilə bağlı kitabxanada hazırlanacaq tədbirlər planına əsasən kitabxana fondunda olan materiallar əsasında müxtəlif adlarda (***"Heydər Əliyev və azərbaycançılıq", "Heydər Əliyev və müstəqil Azərbaycan", "Azərbaycanı dünyaya tanıdan lider", "Heydər Əliyev və Azərbaycan diasporu" və s.***) mühazirələr, dəyirmi masa, disput, elmi-praktiki, nəzəri konfrans və seminarlar təşkil edilməlidir. Keçirilən tədbirlər zamanı Heydər Əliyevin həyat və fəaliyyətini özündə hərtərəfli əks etdirən sərgilər hazırlamaq, sənədli kinofilmlər nümayiş etdirmək lazımdır. İnformasiya kommunikasiya texnologiyalarından istifadə etməklə, yeniyetmə və gənclərimizə internet vasitəsilə müvafiq saytlardan dahi şəxsiyyət Heydər Əliyevin irsi, həyat və fəaliyyəti haqqında məlumatları təbliğ etmək, Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən audiovizual materiallardan

(videoyazı və müxtəlif səsli multi-media daşıyıcıları olan kompakt disklər (CD, DVD)) istifadə etmək olar.

Milli Kitabxanada ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin qurulmasında və rifahının yüksəlməsindəki xidmətlərindən, onun mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin inkişafına göstərdiyi xüsusi qayğıdan bəhs edən kitabxananın fondunda olan materiallar əsasında elektron resurslar – elektron kitablar, məqalələr, fotoşəkillər, audio və video materiallardan ibarət "Heydər Əliyev mədəniyyətimizin hamisidir" adlı elektron məlumat bazası hazırlanmışdır.

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

**Azərbaycanın xalqının ümummilli lideri**

- həyat və fəaliyyəti;
- görkəmli şəxslər Heydər Əliyev haqqında;
- əsərləri;
- müdrik kəlamları;
- haqqında;
- təltiflər.

**Heydər Əliyev Milli Kitabxanada**

- nitqlər;
- video görüntülər;
- fotoalbomlar.

**Mədəniyyətimizin inkişafının Heydər Əliyev mərhələsi**
**Heydər Əliyevin mədəniyyətlə bağlı:**

- fərman və sərəncamları;
- çıxışları, məruzələri, nitqləri, təbrikləri;
- mətbuatda çixan mədəniyyət xəbərləri;
- kitablar;
- video görüntülər;
- fotoalbom.

**Heydər Əliyev surəti bədii ədəbiyyat və incəsənətdə**

- Heydər Əliyevə ithaf olunmuş musiqilər;
- Heydər Əliyev bədii ədəbiyyatda;
- Filmlər.

**Xatirəsinin əbədiləşdirilməsi**

- rəsmi sənədlər;
- orden, medal və mükafatlar;
- xatirə sikkələri;
- Heydər Əliyev Filateliyada (Markalar) ;
- Heydər Əliyev Fondu;
- Heydər Əliyev Mərkəzi;
- Heydər Əliyev Adına Saray;
- Heydər Əliyev adına Beynəlxalq Hava Limanı;
- Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft boru kəməri;
- Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodu;
- Azərbaycan Respublikası Mtn-in Heydər Əliyev Adına Akademiyası;
- Heydər Əliyev Adına Müasir Təhsil Kompleksi;
- Heydər Əliyev Adına Azərbaycan Ali Hərbi Məktəbi;
- Heydər Əliyev Adına Lisey;
- Heydər Əliyevin Xatirə Muzeyləri;
- Parklar və abidələr;
- Xatirəsinə ithaf edilmiş möhtəşəm xalça.

**Fotoqalereya**

Hər bir kitabxana yubileylə bağlı müxtəlif tədbirlər həyata keçirərkən bu məlumat bazasında toplanmış materiallardan istifadə edə bilər.

Yubileylə bağlı kitabxanada hazırlanacaq bir ***Sərgi nümunəsi***:

**Başlıq:**

***"Yaşayan və yaşadan Lider" - və ya "Ulu Öndər – 90"***

Bu bölmədə, ümummilli lider Heydər Əliyevin şəkli, bioqrafiyası, rəhbərlik illəri, təltifləri, seçilmiş fikirləri, xatirəsinin əbədiləşdirilməsi haqqında materiallar yerləşdirilməlidir.

**I bölmədə** Heydər Əliyev haqqında kitablar, sonra isə məqalələr yerləşdirilir.

**II bölmə** "Mədəniyyətimizin inkişafının Heydər Əliyev mərhələsi" adlanır.

Bu bölmədə mədəniyyətin bütün sahələrinə dair ulu öndər tərəfindən imzalanmış fərman və sərəncamlar, çıxışlar, məruzələr, nitqlər, təbriklər yerləşdirmək lazımdır.

**III bölmə** "Görkəmli şəxsiyyətlər Heydər Əliyev haqqında" adlanır.

Bu bölmədə Heydər Əliyev haqqında görkəmli şəxsiyyətlər, elm və mədəniyyət xadimləri, ictimai-siyasi xadimlər tərəfindən deyilən fikirləri, yazılmış kitabları yerləşdirmək lazımdır. Məsələn:

Sitatlar:

Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Azərbaycanın son 30 ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişi Heydər Əliyevin adı ilə sıx bağlıdır.

Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxara bilmiş, ölkənin gələcək inkişaf strategiyasını müəyyən etmiş və onun həyata keçirilməsi üçün mühüm addımlar atmışdır. Azərbaycanın 1969-cu ildən bəri yaşayan dövrü xalqımızın tarixinə Heydər Əliyev dövrü kimi əbədi həkk olunmuşdur.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Heydər Əliyev həqiqətən, Rusiyanın böyük dostu idi, biz bunu hiss edirdik və çox qiymətləndiririk. Azərbaycan bütün bu illər ərzində MDB-nin az-az ölkələrindən biri idi ki, orada rusdilli məktəblər bağlanmamış, rusdilli nəşrlərin sayı nəinki azalmamış, hətta Sovet İttifaqı dövründəkindən də çox olmuşdur... O, böyük dövlət xadimi idi. Mübaliğəsiz demək olar ki, siyasət nəhəngi idi. Mən ona, sadəcə böyük hörmətlə yanaşmırdım, mən ona məhəbbət bəsləyirdim... Bu, böyük itkidir.

**Vladimir Putin,**
*Rusiya Federasiyasının Prezidenti*

Sərgidə mövzu ilə əlaqədar fotoşəkillər, müxtəlif növ audiovizual sənədlər yerləşdirmək olar.

Bu gün milli ideologiyamız olan azərbaycançılıq get-gedə daha yüksək səviyyədə inkişaf etməkdədir. Çünki azərbaycançılıq həm də birləşdirici bir missiyanı həyata keçirir. Bu ideologiyanı təbliğ etmək üçün isə kitabxanalarda daha geniş tədbirlər həyata keçirilməli, maarifləndirmə işi aparılmalıdır. Oxuculara Azərbaycan tarixi, coğrafiyası, iqtisadiyyatı, mədəniyyəti, səhiyyəsi və hərb sənətilə bağlı məlumatlar verilməli, gənclərə azərbaycançılıq ideyaları aşılanmalı, Azərbaycanın regionda və dünyada tutduğu mövqe izah edilməlidir.

Kitabxanaların daxili tərtibatında müstəqil Azərbaycanın atributları və dövlət rəmzləri – bayraq, gerb, himn və ölkəyə dair digər məlumatların əks olunduğu stendlərin, guşələrin olması mühüm əhəmiyyət kəsb edir. Keçirilən bütün tədbirlərdə, hətta ekskursiyaların özündə belə azərbaycançılığın təbliğinə xüsusi diqqət yetirmək lazımdır. Təbliğat işlərində, hərbi vətənpərvərlik tərbiyəsinin kökündə azərbaycançılıq məfkurəsi dayanmalı, azərbaycançılıq ideologiyası böyüyən nəslin ideyalarına, düşüncələrinə, baxışlarına, əməllərinə hopmalıdır.

Azərbaycan xalqının tarixi, xüsusən də Azərbaycan xalqının dövlətçilik ənənələri, xalqın tarixində mövcud olmuş ənənələr, milli-etnik tarixi, coğrafiyası, maddi və mənəvi

abidələri, folkloru ümumilikdə isə ulu babalarımızın irs qoymuş olduğu milli mədəniyyəti və mənəvi dəyərləri, incəsənəti və ədəbiyyatı dərindən öyrənilməli və hərtərəfli təbliğ olunmalıdır.

"Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır" söyləyən ulu öndər Heydər Əliyev istər keçmiş sovetlər dönəmində, istərsə də 1993-cü ildən sonra ölkənin iqtisadi, sosial inkişafı istiqamətində mühüm addımlar atmış, Azərbaycanın ən yüksək zirvələri fəth etməsinə böyük zəmin yaratmışdır. Arzusu, amalı Azərbaycanı hərtərəfli inkişaf etmiş müstəqil, dünya birliyində tanınan bütöv bir dövlət kimi görmək idi. Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycan Respublikasını tanıtmaq, onu təbliğ etmək baxımından Azərbaycan haqqında kitabxananın fondunda olan çap məhsulları əsasında elektron məlumat bazasının yaradılması yaxşı olardı. Ən qədim zamanlardan başlayaraq müasir dövrə qədər xalqımızın keçdiyi tarixi yolu əhatə edən ***"Azərbaycan - Doğma diyar"*** adlı elektron məlumat bazasını nümunə göstərmək olar. Bazada materialları aşağıdakı bölmələr üzrə yerləşdirmək olar:

- **Ümumi məlumatlar;**
- **İnzibati-ərazi vahidləri;**
- **Tarix**;
- **İqtisadiyyat**;
- **Mədəniyyət və turizm;**
- **Görkəmli azərbaycanlılar;**
- **Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi;**
- **Azərbaycan beynəlxalq aləmdə**.

Qeyd edək ki, hər bir kitabxanaçı bazaya başqa bölmələr də əlavə edilə bilər. Məlumat bazası mütəmadi olaraq yenilənməli, yeni məlumatlarla zənginləşməlidir.

Ümummilli lider dəfələrlə qeyd etmişdir ki, müstəqil Azərbaycan Respublikasının inkişafında dünyanın müxtəlif ölkələri-

nə yayılmış azərbaycanlıların həmrəyliyi, mənəvi-ideoloji, siyasi köməyi böyük rol oynayır - bir xalq olaraq əsas vəzifələrimizdən biri həmin həmrəyliyi gücləndirməkdən, həmin köməyin daha ardıcıl, daha intensiv xarakter almasını təmin etməkdən ibarətdir. Ümummilli lider Heydər Əliyev ilkin addım kimi 1991-ci il dekabrın 16-da dünya azərbaycanlılarını vahid məqsəd ətrafında birləşdirəcək, hər il dekabrın 31-də "Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Gününün keçirilməsi haqqında" qərar qəbul etmişdi.

Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideyalarının, milli mənəvi dəyərlərin bütün dünyada yaşayan həmvətənlərimiz arasında yayılması, hər il 31 dekabrın Dünya Azərbaycanlılarının Birlik və Həmrəylik Günü kimi qeyd edilməsi və bu münasibətlə bütün dünyada yaşayan azərbaycanlıların iştirakı ilə keçirilən mərasimlər, xarici səfərlər zamanı ulu öndərin Azərbaycan diasporası ilə keçirdiyi görüşlər, Dünya Azərbaycanlılarının Bakıda keçirilən I qurultayı və bu səpkidə gördüyü mühüm işləri oxucuların diqqətinə çatdırmaq üçün kitabxanada kütləvi tədbirlərin müxtəlif formalarından istifadə etmək olar.

İndi Azərbaycan diasporu kifayət qədər inkişaf etmiş, müxtəlif mədəniyyət mərkəzləri yaradılmışdır ki, onlar Azərbaycan dilinin, ədəbiyyatının, incəsənətinin dünyada tanınmasında, müstəqil Azərbaycan ideallarının beynəlxalq səviyyədə müdafiəsində müəyyən xidmətlər göstərirlər. Hər şeydən əvvəl, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında onların üzərinə böyük vəzifələr düşür. Dünyanın hər yerində yaşayan azərbaycanlıların apardığı işlər haqqında əhalini maarifləndirmək məqsədilə kitabxanada 31 dekabr - Dünya azərbaycanlılarının həmrəylik gününə həsr olunmuş ***"Bizim bir vətənimiz var - Azərbaycan!"*** adı ilə görüş (və ya söhbət) keçirmək olar. Tədbiri imkan daxilində, xarici ölkələrdə yaşayıb fəaliyyət göstərən tanınmış soydaşlarımızın iştirakı ilə keçirmək daha

məqsədəuyğun olardı. Bu mümkün olmadıqda, tədbir yaradıcı ziyalıların, müəllimlərin, hüqüq və ədliyyə işçilərinin, zabitlərin iştirakı ilə keçirilə bilər. Burada azərbaycanlıların harada yaşamaları və fəaliyyət göstərmələrindən asılı olmayaraq bir Vətənin, bir xalqın övladları olmasından, Vətənimizin, xalqımızın gələcəyi üçün göstərdikləri xidmətlərdən, onların milli şərəf və ləyaqətindən danışılır.

Tədbirlə əlaqədar ***"Onlar Azərbaycan övladıdır"*** mövzusunda xarici ölkələrdə yaşayan görkəmli elm, ədəbiyyat, mədəniyyət və incəsənət xadimlərinə həsr olunmuş fotostend hazırlamaq olar. Fotostendlə yanaşı mövzuya uyğun slaydşou, videoçarx, qısa filmlər də hazırlayıb təqdim etmək mümkündür. Tədbirə ərazidə fəaliyyət göstərən bədii özfəaliyyət kollektivlərini dəvət etmək tədbir iştirakçıları üçün maraqlı olardı. Hazırlıq işləri apararkən kitabxananın saytında keçiriləcək tədbir haqqında anons yerləşdirmək lazımdır. Orada tədbirin keçiriləcəyi ünvan, dəqiq tarix, saat, iştirak edəcək qonaqlar barədə məlumat verməklə tədbirə marağı artırmaq olar.

Azərbaycanşünaslığın, azərbaycançılığın birinci ən vacib ünsürü **dildir**. Heydər Əliyevin azərbaycançılıq təliminin təməlində məhz Azərbaycan dili dayanır. Azərbaycan dilini bilmədən azərbaycançı olmaq mümkün deyil. Azərbaycançılıq ideologiyası ittihadçılığın əsas prinsiplərindən biri olaraq ünsiyyət birliyini nəzərdə tutur. Belə birlik isə ana dili, Azərbaycan dili vasitəsilə baş tutur.

Azərbaycan dilinin dövlət dili statusu alması, onun bir ünsiyyət vasitəsi kimi bugünkü səviyyədə inkişaf etməsi, qrammatik elmi əsaslarının yaradılması, latın qrafikasına keçilməsi də Heydər Əliyevin birbaşa xidməti sayəsində mümkün olmuşdur. Bu baxımdan "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2001-ci il tarixli Fərmanı və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2001-ci il tarixli Fərmanı

və perspektiv proqram xarakterli digər rəsmi sənədlərin dərindən öyrənilməsi, həmin qanun və fərmanlara daim riayət edilməsi müasir həyatımızın ən vacib və ən aktual məsələlərindən biri olmalıdır. Bu ideyanı təbliğ etmək üçün Azərbaycan dilinin, ədəbi, danışıq dilinin təbliğinə xüsusi diqqət yetirmək lazımdır. Harada yaşamasından, həyatda hansı mövqe tutmasından asılı olmayaraq, hər bir azərbaycanlının ən böyük vəzifəsi ana dilini - Azərbaycan dilini bilməkdən, onunla fəxr etməkdən ibarətdir. Dilimizin təbliği ilə əlaqədar kitabxanada kütləvi tədbirin müxtəlif formalarından istifadə etmək olar. Bu məqsədlə kitabxanaçı slayd şou hazırlaya bilər. Sizə bir slayd nümunəsi təqdim edirik:

Slayd: "**Ana dilimizi sevək, sevdirək**"

**Slayd 1.**

Şəkil




**Slayd 2. Sitat**

**Slayd 3 Rəsmi sənədlər**

- "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Bakı şəhəri, 18 iyun 2001-ci il;

- Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 9 avqust 2001-ci il;
- "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu, 30 sentyabr, 2001-ci il

**Slayd 4: İzahlı mətn**

Azərbaycan dili "Azərbaycanın dövlət müstəqilliyinin başlıca rəmzlərindən" sayılır və deyilir ki, "bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının da dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O, xalqın ən ağır günlərində belə milli mənliyini, xoşbəxt gələcəyə inamını qoruyub möhkəmləndirmişdir. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, böyük gələcəyə malikdir. Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək, olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir". ("Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il fərmanı)

**Slayd 5. Şeir**

Ana dilim, səndədir xalqın əqli, hikməti,
Ərəb oğlu Məcnunun dərdi səndə dil açmış.
Ürəklərə yol açan Füzulinin sənəti,
Ey dilim, qüdrətinlə dünyalara yol açmış.
Səndə mənim xalqımın qəhrəmanlıqla dolu
Tarixi varaqlanır,
Səndə neçə min illik mənim mədəniyyətim,
Şan-şöhrətim saxlanır.
Mənim adım-sanımsan,
Namusum, vicdanımsan!

**Bəxtiyar Vahabzadə,**
*Xalq şairi*

Azərbaycançılığın əsasında mükəmməl **ailə kultu** dayanır. Xüsusilə Şərqdə, türk-müsəlman dünyasında tarixin təcrübəsi göstərir ki, ailəsi möhkəm olmayan xalqın dövləti də möhkəm ola bilməz. Çünki ordu müxtəlif ailələrdən çıxmış fərdlərdən ibarətdir. Əsgərin tərbiyəsi, vətən eşqi – ailədən, anaya məhəbbətdən başlanır.

Ulu öndər Heydər Əliyev gənclərin **vətənpərvərlik tərbiyəsinə** azərbaycançılığı, qəhrəmanlığı əxz etmək, bütün çətinlikləri aradan qaldırmaq vasitəsi kimi baxırdı: "Siz də Azərbaycan xalqına xidmət edərək... vətənpərvərlik hissi ilə yaşayaraq özünüzü qəhrəman, cəsur, qüdrətli bir insan kimi formalaşdırmalısınız və qarşıdan gələ biləcək bütün çətinliklərə hazır olmalısınız". Milli ideologiyadan, azərbaycançılıq ideologiyasından danışarkən, böyük insan hər bir azərbaycanlının vətənpərvərlik hissləri ilə yaşamasını daim önə çəkmişdi: "*Milli vətənpərvərlik hissləri hər bir vətəndaşda o qədər güclü olmalıdır ki, hər bir vətəndaş milli mənafeyi öz şəxsi mənafeyindən, öz şəxsi yaşayışından, öz şəxsi həyatından - hər şeydən üstün tutsun*".

Kitabxanalarda keçirilən tədbirlər arasında vətənpərvərlik tərbiyəsi bu günümüz üçün daha aktual, daha vacib sayılır. "Mən Azərbaycanlıyam!", "Azərbaycan həqiqətləri", "Azərbaycan – doğma diyar", "Mənim Azərbaycanım" və başqa adlarda şeir, mahnı və rəsm müsabiqələri keçirmək olar. Müsabiqə üçün Azərbaycanın şair və bəstəkarlarının vətənpərvərlik ruhunda yazılmış şeir və mahnıları seçilib iştirakçılara paylanmalıdır. Müsabiqədə müxtəlif yaş qrupundan olan uşaq və yeniyetmələr iştirak edə bilər. Müsabiqənin kitabxanaya yaxın ərazidə yerləşən ümumtəhsil məktəblərinin və məktəbdənkənar tərbiyə müəssisələrinin iştirakı ilə keçirilməsi məsləhət görülür. Müsabiqənin keçirilməsində məqsəd yeniyetmə və gənclərin istedad və yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılması, ümummilli lider Heydər Əliyev şəxsiyyətinə hörmət, gənc nəsildə doğma vətənə sevgi, məhəbbət hisslərinin aşılanmasından

ibarətdir. İlk növbədə müsabiqə keçiriləcəyi barədə həm kitabxanada, həm əlaqədar müəssisələrdə, eləcədə kitabxananın saytında elan verilməlidir. Müsabiqənin keçirilmə müddəti, işlərin təqdim ediləcəyi ünvan və digər məlumatlar elanda öz əksini tapmalıdır. Müraciət edən iştirakçılarla müsabiqənin gedişi barədə söhbət aparılmalı, onun məqsəd və mahiyyəti izah edilməlidir. Ən yaxşı rəsmlər təqdim edilmiş işlər arasından seçilərək tədbirin keçirildiyi vaxt təşkil olunmuş sərgidə nümayiş etdirilməlidir. Sonda qaliblərə diplom, Fəxri fərman və xatirə hədiyyələri təqdim edilə bilər. Yaxşı olardı ki, qaliblərə təqdim edilən hədiyyələr Azərbaycanla bağlı (Azərbaycanın dövlət rəmzləri- atributları, tarixi abidələri, milli musiqi alətləri və s.) suvenirlər olsun. Çünki, Azərbaycançılığın təbliğinin ən yaxın və mühüm yolu Azərbaycanın tanıdılmasından keçir. Müsabiqənin yekunları barədə kitabxananın və əlaqədar müəssisələrin saytında, yerli mətbuatda məlumatların işıqlandırılması məqsədəuyğun olardı.

Azərbaycan xalqı qədim tarixə, zəngin mədəniyyətə malikdir. Xəzərin sahillərində yerləşən, Qərblə Şərqin qovuşduğu bir məkan olan Azərbaycan qədim dövrlərdən təkcə tükənməz təbii sərvətlər mənbəyi və neft diyarı kimi yox, həm də böyük tarixi şəxsiyyətlər, elm, mədəniyyət və incəsənət xadimləri yetirən bir məmləkət kimi tanınmışdır. Babək, Koroğlu, Qaçaq Nəbi, Mehdi Hüseynzadə kimi qəhrəmanlarımız, Nizami, Füzuli, Nəsimi, Sabir, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Səməd Vurğun kimi dahi şair və yazıçılarımız, Bəhmənyar, Nəsirəddin Tusi, Yusif Məmmədəliyev, Lütfi Zadə kimi dünyaşöhrətli alimlərimiz Cavanşir, Məhəmməd Cahan Pəhləvan, Şah İsmayıl Xətai, Nəriman Nərimanov, Fətəli Xan Xoyski, Əlimərdan bəy Topçubaşov kimi dövlət xadimlərimiz azərbaycançılıq ideyalarının yaranmasında, formalaşmasında, qorunmasında və yayılmasında mühüm rol oynamışlar. Bu baxımdan kitabxanalarda Azərbaycan dövlətinin təşəkkül tapıb formalaşması, müstəqilliyin, azadlıq və istiqlaliyyətin qorunub

saxlanması, yadelli işğalçılara qarşı mübarizə tarixini yaratmış şəxsiyyətlərə aid materialların öyrənilməsi və təbliğ edilməsi tövsiyə olunur. Tarixi şəxsiyyətlərə dair materialların öyrənilməsi və təbliği tarixi şəxsiyyətlərin müsbət nümunələrinə əsaslanaraq yeniyetmələrdə nəcib keyfiyyətlərin inkişafına, onların yaxşı bir insan və vətəndaş kimi formalaşmasına şərait yaradır. Azərbaycanda cəmiyyəti öz arxasınca aparmağa qadir olan bir çox şəxsiyyətlər, dovlət xadimləri və sərkərdələrin, mədəniyyət, elm və texnika sahəsində fəaliyyət göstərmiş şəxsiyyətlərin həyat və fəaliyyətini əks etdirən materiallar əsasında kitabxanada vaxtaşırı tədbirlərin keçirilməsi məqsədəuyğun olardı. ***"Xalqımızın qadın hökmdarı", "Şah İsmayıl Xətainin bədii obrazı", "Cavad xan qeyrəti", "Məhəmməd Füzuli şəxsiyyəti", "Dünya şöhrətli Nəsirəddin Tusi"*** və s. adlarda müzakirə, disput, mövzu gecələri, muzeylərə, tarixi abidələrə ekskursiyalar, tarixi şəxsiyyətlərə aid əsərlər yazan şair və yazıçılarla görüşlər və s. keçirmək olar. Keçirilən tədbirlər zamanı tarixi şəxsiyyətlərə dair çəkilmiş kinofilmlərdən ("Babək", "Nəsimi", "Nizami", "Fətəli xan", "Ulduzlar sönmür", "Dədə Qorqud", "Səbuhi", "Atabəylər", "Hökmdar və qızı" və s.), tamaşalardan, audiovizual materiallardan istifadə olunmalıdır.

Heydər Əliyev xalqın tarixi dəyərlərinə həmişə böyük önəm vermişdir. Ulu öndər yüksək zəkası, müdrik siyasəti, böyük uzaqgörənliyi ilə hələ keçən əsrin 70-ci illərindən başlayaraq Azərbaycanın bir çox regionlarında və paytaxt Bakıda tarix-diyarşünaslıq muzeylərinin, bir çox sahə muzeylərinin yaradılmasını vacib bilmiş və bu işin həyata keçməsi üçün konkret qərarlar qəbul etməklə bərabər həmin qərarların icrasını da həmişə şəxsi nəzarətində saxlamışdır. 1980-ci ildə Heydər Əliyevin şəxsi təşəbbüsü və rəhbərliyi ilə muzey işinə aid xüsusi qərar qəbul edilmiş və bununla Azərbaycanda muzey şəbəkəsi daha da inkişaf etdirilmişdir.

Heydər Əliyevin şəxsi təşəbbüsü və rəhbərliyi ilə muzey işi sahəsində yeni mərhələ başlanmış, Bakı şəhərində Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinin - Ü.Hacıbəyovun, S.Vurğunun, H.Cavidin, C.Cabbarlının, Bülbülün, Ə.Əzimzadənin, M.S.Ordubadinin, N.Nərimanovun, Niyazinin, A.Şaiqin, L. və M. Rastrapoviçlərin və s. yaşayıb yaratdıqları ünvanlarda xatirə və ev-müzeyləri fəaliyyətə başlamışdır.

Hər bir xalq onun tarixində müstəsna rolu olmuş dahi şəxsiyyətlərin xatirəsini həmişə uca tutaraq onlara həsr edilmiş fondlar, müxtəlif xatirə kompleksləri, muzeylər, mərkəzlər yaradır. Bu insanların həyatı və fəaliyyəti ilə bağlı nə varsa ehtiramla tədqiq edilərək mənəvi dəyərlər kimi qorunub saxlanılır və böyüməkdə olan nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması işində istifadə edilir. Xalqımızın taleyində mühüm rol oynayan belə şəxsiyyətlərdən biri də məhz Heydər Əliyevdir. Onun müdrikliyi, uzaqgörənliyi, fəaliyyəti, bütövlükdə, həyatı hər kəs üçün nümunədir. Bu gün sadə peşə adamından tutmuş rəhbər işçiyədək hamı ümummilli lider Heydər Əliyevin irsini, onun idarəçilik prinsiplərini öyrənməli, onlardan birmənalı şəkildə bəhrələnməlidir. Bu məqsədə nail olmağın ən təsirli yollarından biri Heydər Əliyev muzey-mərkəzlərinin yaradılmasıdır. Hazırda bütün regionlarımızda Heydər Əliyev mərkəzləri yaradılır.

Ulu öndərin həyat və fəaliyyət fəlsəfəsinin, elmi-nəzəri irsinin, azərbaycançılıq ideologiyasının öyrənilməsi, təbliği və gələcək nəsillərə çatdırılması kimi şərəfli missiyanı öz üzərinə götürən Heydər Əliyev Fondu bu gün onu uğurla həyata keçirir. İnsanların sağlamlığı, gənc nəslin təlim-tərbiyəsi, milli mədəniyyətimizin təbliği, ekoloji mühitin təmizliyi, sosial problemlərin həlli, xüsusi qayğıya ehtiyacı olan uşaqlara diqqətin artırılması, Azərbaycan həqiqətlərinin dünyaya yayılması və digər sahələrdə ardıcıl layihələr həyata keçirməklə Fond ulu öndər Heydər Əliyevin ideyalarını yaşadır və inkişaf etdirir. Fondda yaradılmış Heydər Əliyevin həyat və fəaliyyətindən

bəhs edən nəfis ekspozisiya onu seyr edən hər kəsin qəlbində qürur hissi yaradır. Ardıcıl və məqsədyönlü fəaliyyəti nəticəsində fond nəinki respublikamızda, hətta xaricdə nüfuzlu beynəlxalq qurumlarda böyük hörmət qazanmışdır.

Ümummilli lider Heydər Əliyev ölkəmizdə **turizmin** inkişafına xüsusi önəm verirdi. 1999-cu il iyun ayının 4-də ulu öndərin müvafiq Fərmanı əsasında qəbul edilmiş "Turizm haqqında" Qanun və 2002-ci ildə həyata vəsiqə almış "2002-2005-ci illərdə Azərbaycanda turizmin inkişafı proqramı" sonrakı dövrlərdə ölkəmizdə turizm sektorunun inkişafına təkan vermişdi.

Kitabxanaçı azərbaycançılığın təbliği üçün yaşadığı ərazinin turizm potensialından da istifadə edə bilər. Bu məqsədlə turizm sahəsində çalışan ictimai təşkilatlarla əlaqələrin yaradılması da məqsədəuyğundur. Kitabxanalar ərazilərində turizm marşrutlarının hazırlanmasında, ekskursiya-diyarşünaslıq xarakterli informasiya-reklam məhsullarının yaradılmasında, öz regionunun informasiya ekskursiya mərkəzinə çevrilməsində fondunda olan ədəbiyyatla yaxından iştirak edərək öz "kiçik vətən"inin turizm imicini formalaşdıra bilərlər.

Kitabxanada "***Azərbaycan – doğma diyar***" adlı diyarşünaslıq sərgisi hazırlamaq olar. Belə sərgilər öz məzmununa, oxucu sahələrinə görə müxtəlifdir: həmişə fəaliyyət göstərən, universal mövzulu, əlamətdar və yaddaqalan tarixlərə aid, yeni daxil olan materialların sərgisi və s. Çalışmaq lazımdır ki, hazırlanacaq sərgilərdə azərbaycançılıq ideyasının bütün ünsürləri əks olunsun. Çünki bu geniş bir təbliğat deməkdir. Kitabxanaya gələn istənilən şəxs hər bir incə detalla maraqlanmağa başlayır. Azərbaycanla bağlı olan hər bir detalın oxucuya izah olunması ölkənin mədəniyyətinin, incəsənətinin, dövlətçiliyin təbliğinə gətirib çıxarır. Burda kitablarla yanaşı, digər sənəd növləri diyarşünaslıqla bağlı qəzet və jurnal materialları, fotolar, CD-lər də nümayiş etdirilir.

Azərbaycanın tarixinin, mədəniyyət və incəsənətinin, əhalinin məişətinin öyrənilməsində **şifahi xalq yaradıcılığı** nümunələrinin (nağıllar, rəvayət və əfsanələr, mahnılar, atalar sözləri və s.) xüsusi əhəmiyyətini nəzərə alaraq onların təbliğinə də xüsusi yer ayırmaq tövsiyə olunur.

Azərbaycanın qeyri-maddi mədəni irsinin, milli folklor ustaları və kollektivlərinin, milli adət-ənənələrin və eyni zamanda respublikanın şəhər və rayonlarının beynəlxalq səviyyədə tanıdılması, regionların sosial-mədəni həyatına müsbət təsir göstərmək, mədəni turizmin inkişafına kömək üçün Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "2010 -2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" Proqramı təsdiq edilmişdir.

Proqrama əsasən şəhər (rayon) mədəniyyət və turizm idarələri (şöbələri) müxtəlif nominasiyalar üzrə namizəd şəhərlər barədə təkliflərini nazirlik tərəfindən yaradılmış müvafiq təşkilat komitəsinə təqdim edir. Bütün təkliflər təhlil edildikdən sonra namizədliyi irəli sürülmüş şəhərin nominasiya üzrə tarixi ənənələri, ümumi hazırlığı, müvafiq sahənin inkişafı, xalq yaradıcılığı subyektlərinin (ustad, kollektiv və s.) sayı, respublika və beynəlxalq tədbirlərdə iştirakı, mədəniyyət infrastrukturunun (mədəniyyət sarayları, evləri, klubları, parkları və s.) mövcud vəziyyəti, keçiriləcək tədbirlərin kəmiyyəti, səviyyəsi, maliyyələşdirilməsi və s. nəzərə alınmaqla növbəti illər üçün folklor, sənətkarlıq, diyarşünaslıq üzrə "Azərbaycanın Folklor Paytaxtı", "Azərbaycanın Sənətkarlıq Paytaxtı" və "Azərbaycanın Əfsanələr Paytaxtı" elan olunur.

Təsdiq olunmuş Tədbirlər Planına əsasən paytaxt seçilmiş şəhərlərdə nominasiyalar üzrə bir sıra rəsmi mərasimlər, milli və beynəlxalq elmi-praktiki konfranslar, dəyirmi masalar, respublika və beynəlxalq səviyyəli konsertlər, müsabiqələr, festivallar, sərgilər, yarmarkalar, infoturlar və s. təşkil olunur.

Hər bir kitabxanaçının keçiriləcək tədbirlərin hazırlanmasında yaxından iştirak etməsi, yeni layihələrdə öz təkliflərini hazırlayıb təqdim etməsi məqsədəuyğun olardı.

Azərbaycançılığın təbliğində ən güclü amillərdən biri **dindir.** Heydər Əliyev dinin tarixdə və cəmiyyətdəki mənəvi-saflaşdırıcı roluna, insanlarda inam, iman və əqidənin formalaşmasına xüsusi diqqət yetirirdi. Ulu öndər dini-mənəvi dəyərlərə yüksək qiymət verərək, onun azərbaycançılıq ideologiyasına, vətənpərvərlik tərbiyəsinə güclü təsirini açıqlayır və göstərirdi ki: "islam dini həmişə insanları saflığa, ülvi mənəviyyata dəvət etmişdir. Qurani-Kərim insanları düzlük, mənəvi paklıq ruhunda tərbiyə edir. Müstəqil Azərbaycan Respublikasının bu ağır, çox çətin, keşməkeşli dövründə bütün bunların bizdən ötrü böyük əhəmiyyəti var. Məhz bu dövrdə hər bir azərbaycanlı, hər bir müsəlman, ilk növbədə, islam dininin tövsiyələrindən istifadə edərək öz mənəviyyatını yüksəltməlidir. Mənəviyyatımız nə qədər yüksək olarsa, hər bir insanda, azərbaycanlıda, müsəlmanda vətənə, öz amallarına sədaqət, mənəvi saflıq əhval-ruhiyyəsi nə qədər güclü tərbiyə edilərsə, Azərbaycan da bu ağır böhran dövründən, çətinliklərdən o qədər tez və müvəffəqiyyətlə çıxar".

Azərbaycan Respublikası Prezidentinin Konstitusiya ilə yanaşı, Qurani-Kərimə and içməsi, İslamın iki böyük bayramının - Qurban və Ramazanın dövlət səviyyəsində qeyd olunması, İslam dininə mənsub abidələrin, ibadət yerlərinin dövlət tərəfindən təmir və bərpa edilməsi və digər bu kimi faktlar milli ideologiyamızın bir hissəsi olan İslam dininin real həyatda dövlət tərəfindən realizəsinin ən bariz göstəricisidir. Din ərazi, dil, mədəniyyət, iqtisadiyyat, dövlətçilik və s. ilə birlikdə milləti, milli həmrəyliyi, milli birliyi yaradır və yaşadır ki, bu da azərbaycançılıq tərbiyəsində ən zəruri vasitələrdəndir.

Milli ideologiyamızın - azərbaycançılığın əsas və ayrılmaz tərkib hissəsi olan islam dini dəyərlərinin rolu haqqında ***"Azərbaycançılıq və İslam dininin dəyərləri", "İslam bizim milli***

***ideologiyamızın ayrılmaz hissəsidir"*** və s. adlarda sərgilər, guşələr, stendlər hazırlamaq, söhbətlər keçirmək məqsədəuyğundur.

Azərbaycançılıq ideyalarının formalaşmasında **milli-mənəvi dəyərlərin** çox mühüm rolu vardır. Ulu öndər Heydər Əliyev milli-mənəvi dəyərləri milli ideologiyamızın mühüm tərkib hissəsi kimi qiymətləndirmişdir. Heydər Əliyev azərbaycançılıq ideologiyasını formalaşdırarkən çoxəsrlik milli-mənəvi dəyərlərin qorunmasına, dövlət siyasətində ehtiva olunmasına ciddi diqqət yetirirdi. (bax: http://anl.az/yenin2011.php Milli mənəvi dəyərlərin təbliğində kitabxanaların rolu /tərt. ed. N.Alışova; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2011.- 85 s.)

Ulu öndər milli-mənəvi dəyərlərin xalqın, vətəndaşların milli birliyinə xidmət etdiyini həmişə vurğulamış, Novruz bayramının isə milli həmrəyliyin təmin edilməsində mühüm rol oynadığını xüsusi qeyd edərək, bildirmişdir ki, Novruz bayramı xalqımızın yüksək ideallar ətrafında daha sıx birləşməsini təmin edir, azad, müstəqil və demokratik Azərbaycan dövlətinin gələcək inkişafı naminə bütün azərbaycanlılar arasında ümummilli həmrəyliyi möhkəmləndirir.

Novruz bayramının YUNESKO-nun dünyanın şah əsərləri sırasında yer almasında Heydər Əliyevin rolunu vurğulamaq lazımdır. Bu, ulu öndərin ideologiyasının timsalında özünü təsdiqlədi.

Bunu nəzərə alaraq kitabxananın fondunda olan materiallar əsasında elektron resurslar – elektron kitablar, məqalələr, foto-şəkillər, audio və video materiallardan ibarət (və ya mövcud olan resursları tapıb, bir araya toplayaraq) Novruz bayramı ilə bağlı Elektron məlumat bazası hazırlamaq yaxşı olardı. Sizə Novruz bayramı ilə bağlı Milli Kitabxanada hazırlanan elektron məlumat bazasını təqdim edirik.




Kitabxanada Heydər Əliyev irsini və azərbaycançılığı necə təbliğ etdiyinizi yoxlamaq üçün oxucular arasında ***anket-sorğudan*** istifadə etmək olar. Bu üsulun tətbiqində başlıca məsələ anketin məzmunlu, dəqiq tərtib edilməsidir. Anket-sorğu üsulu yazılı və şifahi formada həyata keçirilə bilər.

Şifahi anket-sorğu keçirilməmişdən öncə oxucularla söhbət aparılmalıdır. Suallar elə tərtib edilməlidir ki, oxucular suallara düşündükləri kimi, öz sözləri ilə cavab versinlər. Bu zaman oxucuları elə hazırlamaq lazımdır ki, suala standart cavablar verməkdən çəkinsinlər, dinləyənləri təəccübləndirən, yaradıcı cavab verməyi bacarsınlar.

Yazılı anket üçün suallar əvvəlcədən seçilir və ona uyğun cavablar müəyyənləşdirilir. Məzmununa görə suallar düzünə və bilavasitə olur. Anket sorğusunu yazışma yolu ilə, poçt əlaqələri ilə də keçirmək olar. Oxucular yazılı anketlə işləməyə uyğunlaşmalıdırlar, çünki yazılı anketlər çox vaxt iştirakçının

özünə təqdim olunur. Şifahi sorğudan fərqli olaraq yazılı sorğu, yəni anketləşdirmə suallara cavabların yazılı verilməsini tələb edir. Yazılı sorğunun güclü tərəfi çoxlu miqdarda soruşulanları əhatə etməsi, nəticə etibarilə kütləvi şəkildə faktların aşkara çıxarılması imkanlarının olmasıdır.

Anketdə suallar qapalı və açıq formada təqdim edilə bilər. Anketdə hər hansı suala cavabın mümkün olan bütün variantları əhatə olunursa, sual qapalı hesab olunur. Bu zaman təqdim olunan suala bir və bir neçə cavabın seçilməsi nəzərdə tutulur. Yazılı anket tərtib edildikdən sonra kitabxanaçılar tərəfindən təhlil edilməlidir. Bu zaman ayrı-ayrı sualların cavabı açılmalı, tədqiqatın məqsədi, məqsəddən asılı olaraq cavabın əhəmiyyəti, anketin necə doldurulması, qeydlərin necə aparılması, hər hansı suala aludəçiliyin qarşısının alınması, vaxta qənaət edilməsi və s. məsələlər ətraflı ölçülüb- biçilməlidir.

Anket-sorğu keçirilməzdən əvvəl elan hazırlanır.

***Nümunə:***

***Hörmətli Oxucu!***

*Kitabxanamızın kollektivi ümummilli lider Heydər Əliyevin irsinin və Azərbaycanın təbliği ilə bağlı kitabxanada keçirilən kütləvi tədbirlərin keyfiyyətinin artırılmasını və belə tədbirlərin müntəzəm keçirilməsini özünün prioritet vəzifəsi sayır. Azərbaycançılıq ideyalarının, vətənin, diyarın təbliği səviyyəsini müəyyənləşdirmək, bu sahədə oxuculara xidməti daha da təkmilləşdirmək məqsədi ilə kitabxanada anket-sorğu keçirilir. Sizi bu anket-sorğuda iştirak etməyə dəvət edirik.*

*Fikirləriniz bizim üçün dəyərlidir.*

*İştirakınıza görə Sizə əvvəlcədən təşəkkür edirik!*

***"Kitabxanamızda ümummilli lider Heydər Əliyev və azərbaycançılıq necə təbliğ olunur?"*** mövzusunda anket-sorğuya nümunə:

Özünüz haqqında məlumat:

**Cins**

- Qadın
- Kişi

**Yaş (il)**

**Təhsil**:

- orta;
- natamam ali;
- ali.

**Təhsil üzrə ixtisasınız**____________________

***1. Kitabxanamızdan istifadə edirsinizmi?***

- hə;
- yox;
- əgər "yox"-sa niyə?____________________

***2. Kitabxanamızda Sizi nə cəlb edir?*** (bir neçə variant qeyd etmək olar)

- universal fondlar;
- nadir kitabların olması;
- xüsusi fondların (təsviri məhsul, not, xəritə, patent və s.) mövcudluğu;
- zəngin soraq biblioqrafiya aparatı;
- elektron kataloq;
- elektron məlumat bazaları;
- kitabxanada xoş ab-hava və rahatlığın olması;
- ünsiyyət imkanı;
- başqaları________________________

***3.Kitabxanada ümummilli lider Heydər Əliyev və azərbaycançılığa dair informasiya tələbatının ödənilməsində hansı informasiya mənbələrinin olması Sizin üçün xüsusilə vacibdir?***

- elektron kataloq, elektron kitabxana;
- elektron məlumat bazaları;
- ənənəvi kataloq və kartotekalar;
- yeni daxil olan çap məhsullarının sərgisi;
- kitablar və ensiklopediyalar;
- İnternetdən pulsuz istifadə;
- Hüquq-informasiya mərkəzi;
- biblioqrafik nəşrlər;
- başqa__________________________

**4.** ***Bu gün kitabxanada ümummilli lider Heydər Əliyev və azərbaycançılıqla bağlı Sizə daha çox lazımdır:***

- konkret sənəd (kitab, məqalə və s. p.) tapmaq;
- mövzu ilə bağlı əsas ədəbiyyatla tanış olmaq;
- faktoqrafik məlumat tapmaq;
- yeni ədəbiyyatla tanış olmaq;
- İnternetdən istifadə;
- başqa________________________________

**5.** ***Kitabxanada ümummilli lider Heydər Əliyev və azərbaycanşünaslığa dair istifadə etdiyiniz elektron resurslar?***

- İnternet resursları;
- elektron kataloq;
- elektron məlumat bazaları.

***6. Əgər elektron resurslardan istifadə etmirsinizsə səbəbi?***

- ənənəvi informasiya daşıyıcıları ilə işləmək rahatdır;
- informasiya şəbəkələrində məlumat bazaları ilə işləmək bacarığı yoxdur;
- internetə çıxış yoxdur;
- ehtiyac yoxdur;
- başqa________________________________

**7.** ***Ümummilli lider Heydər Əliyevin hansı sahədəki xidmətləri sizi daha çox maraqlandırır?***

- Səhiyyə;
- Elm və texnika;
- Mədəniyyət;
- Tarix;
- İqtisadiyyat və Neft;
- Ədəbiyyat;
- başqaları______________________________

**8.** ***Kitabxanamızda ümummilli lider Heydər Əliyev və Azərbaycançılığın təbliği sizi qane edirmi?***

- Bəli
- Xeyr
- Səbəbi________________________________

***9. Kitabxananın işində Sizi nə qane etmir?*** (bir neçə variant qeyd etmək olar)

- qeyri münasib iş saatları;
- Ümummilli lider Heydər Əliyevin irsi ilə bağlı ədəbiyyatın azlığı;
- Azərbaycanşünaslıqla bağlı ədəbiyyatın azlığı;
- dövri nəşrlərin məhdudluğu;
- xidmətin səviyyəsi;
- oxucular üçün normal şəraitin yoxluğu (işıq, temperatur, səs-küy);
- tədbirlərin bəsit təşkili;

- kitabxananın mərkəzdən kənarda yerləşməsi;
- başqaları________________________________

**10.** ***Sizə Heydər Əliyev irsi ilə bağlı lazımi informasiyanı tapmağa mane olan səbəblər hansılardır?*** _______________________________

**11.** ***Bizim kitabxananın işində hansı müsbət dəyişikliklər görmək istərdiniz?*** _________________________________

***Kitabxananın fəaliyyəti ilə bağlı təklifləriniz***_________________

**İştirakınıza görə təşəkkür edirik!**

Anketlər toplandıqdan sonra qruplaşdırılır (tam cavab verənlər, yarımçıq cavab verənlər, cavab verməyənlər), statistik üsullarla təhlil aparılır.

Yazılı anketin köməyi ilə kitabxanada azərbaycançılıqla bağlı təbliğatın səviyyəsini, oxucuların kitabxanaya münasibətini müəyyənləşdirmək, işdəki çatışmazlıqların səbəbini aşkara çıxarmaq mümkündür.

Anket açıq suallar əsasında tərtib edilirsə, cavablar oxucuların şəxsi təsəvvürlərinə uyğun olaraq verilir. Açıq sualda cavabların xarakteri, sayı, növləri və formaları əvvəlcədən nəzərdə tutulmur. Nümunə:

**"Heydər Əliyev və azərbaycançılıq"**

- Azərbaycanın dövlət rəmzləri hansılardır?
- Azərbaycanla həmsərhəd olan ölkələri tanıyırsınızmı?
- Azərbaycançılıq ideologiyasının banisi kimdir?
- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nə vaxtdan başlayıb?
- Hansı şəhər və rayonlarımız erməni qəsbkarları tərəfindən işğal olunmuşdur?
- Ümummilli lider Heydər Əliyevdə ən çox sevdiyiniz cəhətlər?
- Sizcə ulu öndərin Azərbaycan xalqına ən böyük xidmətləri hansılardır?
- Ulu öndərin ən çox sevdiyi şeir hansıdır?
- Heydər Əliyev haqqında yazılmış hansı kitablar var?

- Azərbaycan elminin və təhsilinin inkişafında Heydər Əliyevin xidmətlərini nədə görürsünüz?
- Ana Dilimiz haqqında nə bilirsiniz?
- Azərbaycanın görkəmli şəxsiyyətlərindən kimləri tanıyırsınız?
- Azərbaycan hansı beynəlxalq təşkilatların üzvüdür?

Hər bir kitabxanaçı azərbaycançılığın təbliği üçün həm Dövlət Proqramında tapşırılmış vəzifələrin həyata keçirilməsinə, həm də Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf konsepsiyasında nəzərdə tutulmuş müddəaların (Bax: maddə 10. Mədəni irsin qorunması və səmərəli idarə edilməsi), Azərbaycan xalqının zəngin adət və ənənələrinin təbliği, milli bayram və mərasimlərin qorunub saxlanılması, tarixi abidələrə, muzeylərə ekskursiyaların təşkili, şifahi xalq yaradıcılığının qorunması və təbliği, xalq oyun və tamaşalarının bərpası, dekorativ və miniatür sənətinin zəngin ənənələrinin inkişaf etdirilməsi, dünyanın nüfuzlu muzeylərində saxlanılan Azərbaycan incəsənəti nümunələrinin öyrənilməsi və təbliği, təsviri sənətimizin təbliği və tanıdılması istiqamətində zəruri işlər görülməsinə yardımçı olmalıdır.

# Nəticə

Dünya şöhrətli siyasətçi, ulu öndər Heydər Əliyev siyasi həyatın və dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, azərbaycançılıq ideologiyasının formalaşmasında və inkişafında da misilsiz xidmətlər göstərmişdir. Heydər Əliyevin uzun müddət dövlət idarəçiliyi sistemində fəaliyyət göstərən bir tarixi şəxsiyyət kimi də əldə etdiyi nailiyyətlər bütün dünyada Azərbaycanı və azərbaycanlı sözlərinin mahiyyətini, dəyərini və tutumunu xeyli artırmışdır. Onun azərbaycançılıq qarşısında ən böyük xidmətlərindən biri məhz bundan ibarətdir.

Qədim dövrlərdən başlayaraq bugünümüzə kimi Azərbaycan xalqının gözəl adət-ənənələrini, milli-mənəvi dəyərlərini, etnik psixoloji xüsusiyyətlərini özündə yaşadan və birləşdirən bir baxışlar sistemi kimi azərbaycançılıq ideologiyası yaranmış və formalaşmışdır.

Azərbaycançılıq – Azərbaycanın tarixinin, mədəniyyətinin dünyada təbliği deməkdir. Azərbaycanın böyük ədib və mütəfəkkirlərinin, alimlərinin, mədəni irsimizin beynəlxalq miqyasda tanıdılması da bu işin mühüm tərkib hissəsidir.

Müasir mərhələdə qloballaşma milliliyə məxsus ən aparıcı keyfiyyətlərə güclü təsir edərək onu sıradan çıxarmağa meyillidir. Odur ki, qloballaşmanın fəsadlı təsirindən qorunmaq üçün milli ideologiyanın təbliği xüsusi əhəmiyyət daşıyır. Buna görə də hər bir azərbaycanlı Vətən, xalq və millət qarşısında özünün mənəvi borcunu şərəflə yerinə yetirməlidir.

Dünya azərbaycanlılarının birliyinin yaradılması istiqamətində ümummilli liderimizin işıqlı ideyaları bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyevin fəaliyyətinin əsas istiqamətlərini təşkil edir. Odur ki, nəinki öz ölkəmizdə vətəndaş cəmiyyətinin formalaşması, eyni zamanda, dünya azərbaycanlılarının milli həmrəyliyi və birliyi getdikcə daha sürətlə, möhkəmlənir və dünyada nüfuzumuz artır, azərbaycançılıq ideologiyası dünyada mühüm yerlərdən birini tutur, ona maraq artır. Çünki

azərbaycançılıq ideologiyası inkişafa, tərəqqiyə, sülhə, haqqa, dinc birgə yaşayışa xidmət edir.

Azərbaycançılığın təbliği istiqamətində bütün vasitələrdən istifadə olunmalı və bunun ən münasib yolu tapılmalıdır. Ulu öndərin və digər görkəmli şəxsiyyətlərin Azərbaycan naminə gördüyü işlər hər bir azərbaycanlıya örnək olmalıdır. Dünyanın hansı guşəsində olmağımızdan, hansı məqsədə qulluq etməyimizdən asılı olmayaraq, Azərbaycan üçün əsl azərbaycanlı kimi nəsə etməyə çalışmaq və ya bunu etmək istəyən soydaşlarımıza dəstək vermək hər birimizin həyat şüarı, ən müqəddəs vəzifəsi olmalıdır. Diaspor təşkilatları tərkibində, tələbə qruplarında, internet bloqlarında, sərhəddə, kitabxanada, təhsildə, tibdə, siyasətdə, elmdə bu xalqın, bu Vətənin adının ön sıralarda səslənməsi bu vətənin övladlarından – bizlərdən, Azərbaycan üçün əsl azərbaycanlı kimi düşünən və çalışanlardan asılıdır.

# Əlavələr

## Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir.

Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir.

Azərbaycanın dünya miqyasında neft-qaz hasil və ixrac edən ölkəyə çevrilməsi, milli neft strategiyasının uğurla həyata keçirilməsi, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələrin bağlanması, neft sənayesinin müasir tələblərə uyğun infrastrukturunun qurulması, neftin Bakı-Tbilisi-Ceyhan, Bakı-

Supsa, Bakı-Novorossiysk boru kəmərləri vasitəsilə şaxələnmiş şəkildə nəqli bilavasitə Heydər Əliyevin xidmətləridir.

Dünya iqtisadiyyatına uğurla inteqrasiya, ölkə daxilində iqtisadi liberallaşma, kredit reytinqimizin artması, iqtisadiyyatımızın rəqabət qabiliyyətliliyinin yüksək mövqedə olması, büdcəmizin və valyuta ehtiyatlarımızın ildən-ilə çoxalması 1993-cü ildən etibarən Heydər Əliyev tərəfindən yeni prinsiplər əsasında qurulan iqtisadiyyatın sabitliyinin bariz nümunəsidir. Azərbaycanda qeyri-neft sektorunun uğurla inkişaf etdirilməsi də Heydər Əliyevin uzaqgörənliyinin məntiqi nəticəsidir.

Postsovet məkanında analoqu olmayan cəsarətli qərarları ilə Heydər Əliyev torpağın şəxsi mülkiyyətə verilməsi ilə ölkəmizin ərzaq təhlükəsizliyini təmin etmiş oldu. Bu gün müxtəlif kənd təsərrüfatı komplekslərinin uğurlu fəaliyyəti onun aqrar siyasətinin parlaq təzahürüdür. Ulu öndərin vaxtilə Cəmşid Naxçıvanski adına hərbi liseyin açılması ilə həyata keçirməyə başladığı müdrik siyasəti milli ordumuzun formalaşması və Azərbaycan Silahlı Qüvvələrinin yaradılması mərhələlərindən keçərək onun Cənubi Qafqazda aparıcı hərbi qüvvə olmasına gətirib çıxarmışdır.

Ana dilimizin dövlət dili kimi tətbiqində, onun imkanlarının genişləndirilməsi və Azərbaycan xalqının ən böyük sərvəti kimi dəyərləndirilməsində Heydər Əliyev şəxsiyyətinin rolu danılmazdır. Azərbaycan mədəniyyətinin və zəngin tarixi irsimizin dünya ictimaiyyətinə tanıdılması Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Məhəmməd Füzulinin 500 illik və "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileylərinin UNESCO səviyyəsində keçirilməsi Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edərək beynəlxalq mədəni ictimaiyyətlə yeni əməkdaşlıq formalarının bərqərar olmasına gətirib çıxarmışdır.

Heydər Əliyevin rəhbərliyi altında milli maraqlara əsaslanan və siyasi perspektivləri nəzərə alan xarici siyasət kursu müəyyənləşmiş, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə qarşılıqlı münasibətlər qurulmuşdur. Onun uğur-

lu xarici siyasəti ölkəmizin etibarlı tərəfdaş kimi qəbul edilərək beynəlxalq miqyasda nüfuzunun artmasına, islahatçı və təşəbbüskar dövlət olaraq tanınmasına xidmət göstərmişdir. Heydər Əliyevin beynəlxalq aləmdə atdığı qətiyyətli addımlar sayəsində diplomatiyamızın fəal mövqeyi formalaşmış, Azərbaycanın zorla cəlb olunduğu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dünya ictimaiyyətinin münasibəti dəyişmiş, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı bütün beynəlxalq hüquqi-normativ sənədlərdə öz əksini tapmışdır.

Heydər Əliyev Böyük İpək Yolunun mühüm mərkəzi olan, mədəniyyətlərin və sivilizasiyaların qovşağında yerləşən ölkəmizi dünyada tolerantlığın və dözümlülüyün məkanı kimi tanıtmışdır. Onun beynəlxalq səfərləri, siyasi, ictimai və dini xadimlərlə görüşləri ölkəmizin yeni imicinin formalaşmasına xidmət edirdi.

Xalqımızın ümummilli liderinin “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam” sözləri dünya azərbaycanlılarının şüarı olmaqla, soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilmişdir. Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər ərzində Heydər Əliyev tərəfindən aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan diasporu təşkilatlanmış, inkişaf etmiş və öz tarixi vətəni ilə sıx bağlılığını nümayiş etdirmişdir. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikasını öz vətəni sayması, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz Heydər Əliyev fəaliyyətinin nəticəsidir.

Heydər Əliyevin XX əsrdə totalitarizmin Azərbaycana qarşı törətdiyi faciələrin davamı kimi qanlı 20 Yanvarı xalqımız əleyhinə hərbi, siyasi və mənəvi təcavüz kimi qiymətləndirməsi onun ömrü boyu sadiq qaldığı siyasi məfkurəsinin və yüksək vətənpərvərliyinin yeni siyasi şəraitdə təcəssümü idi.

Mövcud siyasi, iqtisadi və sosial böhran müstəqilliyimizin ilk illərində Azərbaycanı vətəndaş müharibəsi həddinə çatdırdığı bir dövrdə Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəldiyi gün - 1993-cü ilin 15 iyunu tariximizə Qurtuluş Günü kimi daxil olmuşdur. Bu qurtuluş qısa bir zamanda özünü nəinki siyasətdə, həm də iqtisadiyyatda, təhsildə, mədəniyyətdə və insanların gündəlik real həyatında büruzə vermişdir.

Tənəzzülə uğrayan iqtisadiyyat, sürətlə artan inflyasiya, işsizlik, ümidsizlik mühiti və digər neqativ hallarla üz-üzə qalmış Azərbaycanı Heydər Əliyev qısa bir zamanda iqtisadi və mədəni yüksəliş yolu tutan, xarici sərmayələrə açıq olan və böyük beynəlxalq layihələrə qoşulan ölkəyə çevirə bildi. Heydər Əliyevin qurduğu dövlətin iqtisadi siyasəti əhalinin sosial müdafiəsini daim diqqət mərkəzində saxlamaqla sosial yönümü ilə səciyyələnirdi. Bu gün Azərbaycan nüfuzlu vətəndaş cəmiyyətinin əsaslarının qurulduğu, müxtəlif siyasi partiyaların sərbəst fəaliyyət göstərdiyi, yüzlərlə senzurasız qəzet və jurnalın nəşr olunduğu, eləcə də çox sayda özəl telekanalların yayımlandığı və internet şəbəkəsi istifadəçilərinin sayının sürətlə artdığı bir ölkədir.

Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Onun siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. Bu uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır.

Heydər Əliyevin memarı olduğu Azərbaycan bu gün böyük tikinti meydançasını xatırladır. Yüzlərlə sənaye və infrastruktur obyektləri, məktəblər, xəstəxanalar, idman qurğuları, yaşayış evləri, inzibati binalar və digər tikililər ucaldılır, yollar salınır. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası bizim gələcək planlarımızı əks etdirməklə yanaşı bir daha sübuta yetirir ki, Heydər Əliyevin ölkəmizin sürəkli tərəq-

qisini bu gün də təmin edən irimiqyaslı proqramları xalqımızın sosial-iqtisadi vəziyyətinin daim yaxşılaşmasına xidmət göstərir. Müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətlərini nəzərə alaraq, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz töhfələr vermiş Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinin ölkə miqyasında layiqincə keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1.Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi Azərbaycan Respublikasında dövlət səviyyəsində geniş qeyd edilsin.

2.Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinin keçirilməsinə dair Tədbirlər Planı təsdiq edilsin.

3.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 21 yanvar 2013-cü il.**

## Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyi, azərbaycançılıq məfkurəsi haqqında

Azərbaycan öz coğrafi vəziyyətinə əsasən Qərb sivilizasiyası ilə Şərq sivilizasiyasını – həm coğrafi, həm də məzmun, mənəvi nöqteyi-nəzərdən – birləşdirən bir ölkədir. Biz bu tarixi missiyamızı da çox yüksək qiymətləndiririk. Şərqlə Qərbi, Avropa ilə Asiyanı, xristian aləmi ilə İslam aləmini birləşdirən Azərbaycan müstəqil dövlətdir.

* * *

Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq.

* * *

Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı birləşdirən bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir.

* * *

Əsrlər boyu ulu babalarımız, Azərbaycanın mütəfəkkir insanları milli azadlıq, müstəqillik arzusu ilə yaşamışlar, vuruşmuşlar, amma buna nail ola bilməmişlər. Biz buna nail olmu-

şuq. Bilin ki, indi bunu əlimizdə saxlamaq, qorumaq hər bir insan üçün canından da artıqdır.

* * *

Doğma, canım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır.

* * *

Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə hər bir vətəndaş vətənpərvərlik hissləri ilə yaşamalıdır və bizim partiyamız, bütün dövlət orqanları, bütün təbliğatımız Azərbaycanda dövlətçiliyi inkişaf etdirmək üçün hər bir vətəndaşda milli vətənpərvərlik hisslərini yaratmalıdır. Milli vətənpərvərlik hissləri hər bir vətəndaşda o qədər güclü olmalıdır ki, hər bir vətəndaş milli mənafeyi öz şəxsi mənafeyindən, öz şəxsi yaşayışından, öz şəxsi həyatından – hər şeydən üstün tutsun. Milli vətənpərvərlik, milli qürur hissi bizim dövlətçiliyimizin yaşaması üçün ən böyük amillərdən biridir.

* * *

...Milli ideologiyamızın ikinci hissəsi bizim milli-mənəvi dəyərlərimizdir. Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin ən əsası bizim müqəddəs kitabımız "Qurani-şərif"də öz əksini tapıbdır. Ancaq bununla yanaşı Azərbaycanın mütəfəkkir insanları, mütərəqqi insanları, Azərbaycanın böyük şəxsiyyətləri, Azərbaycanın hörmətli siyasi və dövlət xadimləri, böyük elm, mədəniyyət xadimləri Azərbaycan xalqının milli-mənəvi dəyərlərini yaradıblar. Bu bizim adət-ənənələrimizdir. Bu bizim milli əxlaqi mentalitetimizdir. Bunların hamısı ilə biz fəxr etməliyik. Milli-

mənəvi dəyərlərimiz bizim ana dilimizdir, Azərbaycan dilidir, bizim dinimizdir. Bizim adət-ənənələrimizdir.

* * *

Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Azərbaycanın ən başlıca sərvətlərindən biri qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif dinlərə etiqad edən adamlardır. Biz bunu qiymətləndiririk və saxlayacağıq. Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Azərbaycanlı sözü bizi həmişə birləşdirib.

* * *

Gələcəyimiz milli ruhda tərbiyə olunmalıdır, gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir vətəndaş vətənpərvərlik hissləri ilə yaşamalıdır və bizim partiyamız, bütün dövlət orqanları, bütün təbliğatımız Azərbaycanda dövlətçiliyi inkişaf etdirmək üçün hər bir vətəndaşda milli vətənpərvərlik hisslərini yaratmalıdır.

* * *

Azərbaycanın hər bir torpağı, hər bir qarışı millətini sevən, xalqını sevən həqiqi azərbaycanlı üçün eyni dərəcədə əziz olmalıdır.

* * *

Azərbaycanın müstəqil olaraq dövlət rəmzləri var. Himni dünyanın hər yerində səslənir, milli gerbi Azərbaycanın dövlətçiliyini hər yerdə nümayiş etdirir, dövlət bayrağı Azərbaycanın

üzərində uğurla dalğalanır və daim dalğalanacaqdır. Biz öz himnimizi, bayrağımızı özümüz qədər sevməliyik. Çünki bu bizim vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzidir.

* * *

Məktəblərdə Azərbaycanın müstəqilliyinin atributları yaxşı təbliğ olunmalıdır. Azərbaycanın dövlət müstəqilliyini təmsil edən Azərbaycanın bayrağına münasibət, onun müqəddəsliyi hər bir cocuqda, yeniyetmədə daxildən olmalıdır. Azərbaycanın bayrağı sadəcə, bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir.

* * *

Biz gərək torpaqlarımızı müdafiə edək, gərək işğal olunmuş torpaqlarımızı geri qaytaraq, Azərbaycanın ərazi bütövlüyünü təmin edək, Azərbaycanın müstəqilliyini qoruyub saxlayaq.

* * *

Hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir.

Çünki çox illər ana dilimiz, Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq, hər bir azərbaycanlı dilin qorunub saxlanılmasında az da olsa, çox da olsa xidmətlərini göstərmişdir. Xüsusən bizim yazıçılarımız, ədəbiyyatçılarımız, şairlərimiz o ağır dövrdə Azərbaycan dilinin yaşamasında böyük xidmətlər göstərmişlər. Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan dili XX əsrdə böyük inkişaf yolu keçmişdir. İndi baxın, bizim dilimiz nə qədər zəngindir, nə qədər məlahətlidir, nə qədər şirindir və bütün fikirləri ifadə etmək üçün nə qədər söz ehtiyatına malikdir. Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, Azərbaycan dilinin getdikcə inkişaf etməsini təmin edəcəyik.

* * *

İnsan hansı ölkədə yaşamasından asılı olmayaraq gərək öz milliliyini qoruyub saxlasın. Dünyada eyni zamanda assimilyasiya prosesi də var. İnsanlar – mən azərbaycanlılar haqqında danışıram - gərək yaşadıqları ölkədə, yenə deyirəm, o şəraiti mənimsəyərək, orada özləri üçün yaxşı mövqelər tutsunlar. Ancaq daim öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olsunlar. Bizim hamımızı birləşdirən, həmrəy edən məhz bu amillərdir - azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır.

* * *

Hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar iqtisadi cəhətdən daha da möhkəmlənib, yaşadıqları ölkələrin iqtisadi-siyasi həyatında fəal iştirak etsinlər, o ölkələrin həyatına öz təsirlərini göstərə bilsinlər. Beləliklə də, müxtəlif ölkələrdə Azərbaycanın müstəqilliyini, onun xarici siyasətini təbliğ etməklə yanaşı, Azərbaycanın problemlərinin həll olunmasına yardım etsinlər.

* * *

Kim Azərbaycanı sevirsə, kim Azərbaycanın müstəqil dövlət olmağını istəyirsə, kim Azərbaycanın ərazi bütövlüyünü istəyirsə, o, bu bayraq altında, azərbaycançılıq amalı, ideyaları ətrafında birləşməlidir.

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan dövlətçiliyi, azərbaycançılıq məfkurəsi haqqında**

Müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyev bizə azərbaycançılıq kimi dərin bir fəlsəfi konsepsiyanı bəxş edərək, Azərbaycan dilini, Azərbaycan tarixini, Azərbaycan mədəniyyətini və milli-mənəvi dəyərlərimizi qorumağı dönə-dönə tövsiyə etmişdir.

* * *

Biz müasir dövləti köklü, əsaslı, milli dəyərlər üzərində qururuq. Milli dəyərlər, ənənələr Azərbaycan xalqı üçün həmişə əziz olubdur. Bu gün də bu möhkəm zəmin əsasında müasir Azərbaycanın qurulması prosesi uğurla davam edir.

* * *

Biz öz gələcəyimizi dərin və zəngin tarixi köklər üzərində qururuq. Bizim üçün milli-mənəvi dəyərlərimiz, ənənələrimiz başlıca rol oynayır. Bu möhkəm mənəvi zəmin üzərində Azərbaycan müasirləşir, yeniləşir və Azərbaycanda aparılan siyasi və iqtisadi islahatlar ölkəmizi gücləndirir.

* * *

Azərbaycanı dünyada tanıdan bizim ziyalılarımızdır – alimlərimiz, rəssamlarımız, şairlərimiz, yazıçılarımız, bəstəkarlarımızdır. Azərbaycanı bu insanlar tanıdırlar. Bu insanlar Azərbaycan cəmiyyətinin aparıcı təbəqəsidir, cəmiyyətin elitasıdır.

* * *

Müstəqillik illərində Azərbaycan xalqının mənəvi potensialı daha da zənginləşmiş, milli mədəniyyət və incəsənət ideoloji buxovlardan azad olaraq azərbaycançılıq məfkurəsi əsasında inkişaf etmişdir.

* * *

Azərbaycan xalqı əsrlər boyu müstəqillik həsrətində idi. Biz müxtəlif dövrlərdə başqa-başqa dövlətlərin tərkibində yaşamışıq. Amma öz milli xüsusiyyətlərimizi itirməmişik. Nəyin hesabına? Onun hesabına ki, öz ana dilimizi, mədəniyyətimizi saxlaya bilmişik, ədəbiyyatımız inkişaf edib, milli ənənələrimiz qorunub saxlanılıbdır. Budur, hər bir xalqın milli identifikasiyasını şərtləndirən əsas məsələlər.

* * *

Bizim ədəbiyyatımız, musiqimiz, incəsənətimiz, tarixi abidələrimiz, doğma Azərbaycan dilimiz – bunlardır Azərbaycan xalqının mənəvi əsasları. Bu möhkəm əsaslar üzərində biz müasir dövlət qururuq. Dövlət quruculuğu fəaliyyətimiz buna yönəlmişdir ki, möhkəm tarixi, mənəvi əsaslar üzərində müasir dövlət quraq, dövlətçiliyi, müstəqilliyi möhkəmləndirək, əbədi, dönməz edək və beləliklə, Azərbaycanın hərtərəfli inkişafına nail olaq.

* * *

Biz hər istiqamətdə çox sürətlə, düşünülmüş proqram və konsepsiya əsasında irəliləyirik. Bu işdə Azərbaycan diasporunun böyük rolu var. Mən istəyirəm ki, həm Azərbaycanın dünyada təbliğ edilməsində, Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılmasında, azərbaycanlıların yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirakında bu rol daha da güclü olsun. Bu, bizim mövqelərimizi möhkəmləndirir. Biz 50 milyonuq. Bu, dünya miqyasında böyük xalqdır. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək.

* * *

Bizim xaricdə yaşayan böyük ailəmiz vardır. Bizim bir vətənimiz var – Azərbaycan! Bizim bir dilimiz var – Azərbay-

can dili! Bizim ümumxalq ideologiyamız var – azərbaycançılıq məfkurəsi!

* * *

Koroğlu bizim xalq qəhrəmanımızdır. Koroğlu vətənpərvərlik, igidlik rəmzidir. Azərbaycan xalqının qəlbində Koroğlu daim yaşamışdır. Bütün dövrlərdə Koroğlunun xalq qarşısında etdiyi xidmətlər Azərbaycan xalqının xatirəsində yaşamışdır və bu gün də yaşayır.

Koroğlu obrazı vətənpərvərlik, igidlik, mərdlik, şücaət obrazıdır. Koroğlu Azərbaycan xalqına xas olan bütün gözəl xüsusiyyətləri özündə əks etdirir. Vətənpərvərlik kimi bu gün də çox vacib olan amil Koroğlu obrazında bariz şəkildə özünü göstərir.

* * *

Gənc nəslin tərbiyə edilməsində "Koroğlu" dastanı çox mühüm bir vasitədir. Çünki gənc nəslimiz vətənpərvərlik ruhunda böyüməli, tərbiyə almalıdır. Müstəqil Azərbaycanın vətəndaşları öz Vətənini, xalqını sevməlidirlər. Koroğlu xalq içərisindən çıxmış, xalq üçün yaşamış gözəl insan, böyük sərkərdə idi. Koroğlu, eyni zamanda, istedadlı insan idi - həm şair, həm aşıq idi. Bir daha demək istəyirəm ki, Azərbaycan xalqının ən gözəl xüsusiyyətləri onda var idi və bizim gənclərimiz keçmişimizdə olan müsbət obrazları da bilməlidirlər, yaxından, dərindən tanımalıdırlar. Biz keçən il müstəqilliyimizin 20 illiyini qeyd etmişik. Ancaq bizim çox böyük, zəngin tariximiz, mədəniyyətimiz vardır. Şifahi xalq yaradıcılığımız vardır. Bizim vətəndaşlar, xüsusilə, gənclər o dahi şəxsiyyətləri tanımalıdırlar.

# Görkəmli şəxslər Azərbaycan dövlətçiliyi, azərbaycançılıq məfkurəsi haqqında

Azərbaycan uğrunda əsrlər boyu mübarizələr aparılmışdır. Baxmayaraq ki, müxtəlif dövrlərdə Azərbaycan müxtəlif imperiyaların tərkib hissəsi olub, xalqımız öz tarixini, mədəniyyətini, dilini qoruyub saxlayaraq milli mənliyini itirməmişdir... 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti Şərqin ilk demokratik parlament respublikası olmuşdur. Həmin il, həmin dövr Azərbaycan müsəlman dünyası, müsəlman Şərqi üçün əsl mayaka çevrilmişdir. Müsəlman qızları üçün ilk dünyəvi məktəb açılmışdır, Azərbaycan qadınları səsvermə hüququnu qazanmışdır, Şərqin ilk operası və baleti yazılmışdır. Lakin əfsuslar olsun ki, Xalq Cümhuriyyətinin ömrü cəmi 23 ay çəkdi. Respublika çox ciddi geosiyasi problem və amillərlə üzləşdi. Bu amillərin sırasında Bakı neftinə olan marağın artması da çox böyük rol oynayırdı. Nəticədə ölkəmiz müstəqilliyini itirdi və hərbi intervensiya yolu ilə Azərbaycanda sovet hakimiyyəti quruldu. 70 ildən çox sürən bu dövrdə xalqımız sovet rejiminin sərt qanunları ilə üzləşdi. Lakin buna baxmayaraq, həmin illərdə Azərbaycanın iqtisadi potensialı formalaşdı, savadsızlıq tamamilə ləğv olundu, təhsil şəbəkəsi yarandı, universitetlər açıldı, Milli Elmlər Akademiyası fəaliyyətə başladı. Bütün bu illərdə Azərbaycan xalqı müstəqillik arzusu ilə yaşayırdı. Nəhayət, 1991-ci ildə Azərbaycan xalqı öz taleyinin, öz torpağının, öz ölkəsinin sahibinə çevrildi.

* * *

Bizim ən böyük sərvətimiz bizim mədəni irsimizdir. Bizim ədəbiyyatımız, poeziyamız, musiqimiz, təkrarsız, nadir xalçaçılıq məktəbimiz, təsviri sənətimiz, memarlıq abidələrimizdir. Bu mədəni irs bizi millət kimi qoruyub saxlayır. Bu gün bu mədəniyyəti qorumaq, saxlamaq, təbliğ etmək hər birimizin mənəvi borcudur.

**Mehriban xanım Əliyeva**
*YUNESKO-nun xoşməramlı səfiri*

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

**Səməd Vurğun**
*Xalq şairi*

Dünyanın sultanı elmdir... Millətdən kənarda səadət yoxdur. Dilsiz millət ola bilməz. Dil birliyi olmasa, milli vəhdətin həqiqi mahiyyəti və həyat gücü ola bilməz. Dil insanlar arasında əsas əlaqə vasitəsidir. Dil – müxtəlif məzhəbə qulluq edən tayfaları, müxtəlif arzularla yaşayan qəbilələri vahid bir millət bayrağı altına səsləyən, onların gücünü-qüvvəsini birləşdirib, bir məqsədə doğru yönəldən, ictimai qüsurları birlikdə dəf etməyə, milli çətinlikləri birlikdə aradan qaldırmağa çağıran, ümumxalq səadətinə nail olmaq, müsibət və bədbəxtliklərdən nicat yolları arayıb tapmaq üçün hamını yekdil, həmrəy olmağa dəvət edən, gözəl yaşayışdan ibarət təzə həyata qovuşduran, vətəndaşlarının əyinlərinə istiqlal paltarı geydirən əsas vasitədir...

**Şeyx Cəmaləddin Əfqani**

Keçmişə məhəbbət gələcəyə xidmətdir!
Vətəni sevmək imandandır!

**Məhəmməd Peyğəmbər**
(s.ə.s.)

Bu gün "azərbaycançılıq" milli həyatın, konfessiyaların harmoniyasının çoxəsrlik ənənəsi, ölkədə yaşayan bütün millətlərin və etnik qrupların qardaşlığı, qarşılıqlı əlaqə və təsirinin tarixi, onların ümumi taleyi və müstəqil Azərbaycanın bütövlüyü uğrunda birgə mübarizəsinin tarixi təcrübəsidir.

**Ramiz Mehdiyev**
*akademik*

Azərbaycançılıq məktəbinin nümayəndələrinin söykəndiyi çoxbudaqlı bir nəhəng palıd vardı – Cəlil Məmmədquluzadə! Bu nəhəng palıdın bir budağında "Danabaş kəndinin əhvalatları" kimi fundamental nəsr nümunəsi, digər budağında "Anamın kitabı" kimi nəhəng dramaturji fakt, üçüncü budağında "Azərbaycan" məqaləsi kimi "Azərbaycannamə" dayanırdı.

**İsa Həbibbəyli**
*akademik*

Azərbaycançılıq heç bir xalqın ideallarına qarşı çıxmamışdı, bu gün də çıxmır, gələcəkdə də çıxmayacaqdır. Ancaq tarix Azərbaycan xalqına edilmiş çoxsaylı təcavüzlərin şahididir. Bircə faktı xatırlatmaq kifayətdir ki, Azərbaycan xalqı öz müstəqil dövlətini tarixi ərazisinin hələlik yalnız beşdə birində qurmağa nail olmuşdur. Ona görə də azərbaycançılıq ideologiyası mənsub olduğu millətin təbii hüquqları uğrunda hələ çox döyüşməli, tarixin səhvlərini düzəltməli olacaqdır.

* * *

Azərbaycan xalqı dünyanın o xalqlarındandır ki, zəngin (və şərəfli!) bir tarix yaşamaqla yanaşı, bu tarixi onun ən müxtəlif dövrlərində, mərhələlərində bütün aydınlığı (və dərinliyi) ilə dərk eləməyə çalışmış, gələcəyə həmişə ümidlə (və inamla!) baxmışdır. Xalq yalnız böyük mütəfəkkirlərinin, elm və sənət xadimlərinin, dövlət adamlarının deyil, ümumkütləvi düşüncənin səviyyəsində də tarixə kifayət qədər həssas olmuş, öz tarixi yaddaşını milli mənliyinin, mentalitetinin - mənəvi xarakterinin üzvü tərkib hissəsi kimi qoruyub saxlamışdır.

**Nizami Cəfərov**

*AMEA-nın müxbir üzvü*

Millət – azərbaycanlı; milli ideya, dövlətçiliyin sivil ideya modeli – azərbaycançılıq! – iki əsrlik nəzəri-ideoloji fikrimizin yekunu, sonuc qənaəti bu gün bu iki düsturla formulə edilir.

**Yaşar Qarayev**

*ədəbiyyatşünas alim*

Azərbaycan çox davalar və çox millətlər görüb və hələ də həyatımıza bir təsir buraxmamış olmayıb. Hal-hazırda biz tarixi pillələrdən keçib, min qovğa görəndən sonra uyuşub sabit bir şəkil almışıq, böyük türk millətinin bir şöbəsini təşkil eləyirik, millətə məxsus bir çox amillərə dəxi malikik: ayrıca dilimiz, adət və qaidəmiz və ədəbiyyatımız var. Əsrlərlə rəyasətpərvər hakim dairələr tapdağı olan xalqımız həmişə mədəni həyatında davam edib, milli simasını heç vaxt itirməyib...

**Y.V.Çəmənzəminli**

*yazıçı*

Vətənpərvərlik sözü altında çox zaman yalnız fövqəladə qurban verməyi və davranışları başa düşürlər. Amma, əslində, o, elə bir ovqatdır ki, adi vəziyyətdə və adi həyat şəraitində dövləti substansional əsas və məqsəd kimi başa düşür. Bu

ovqat, ümumiyyətlə, etimaddır, mənim substansional və xüsusi marağımın başqasında, yəni dövlətdə yerləşdiyini başa düşməkdir.

**Hegel**

*alman filosofu*

# Ədəbiyyat

1. “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında” Azərbaycan Respublikası Prezidentinin 23 may 2012-ci il Sərəncamı [Mətn] //Azərbaycan.- 24 may.- 2012.- S.1.

2. “Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi barədə”: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 6 oktyabr, 2008-ci il [Mətn] //Azərbaycan.-2008.- 7 oktyabr.- S.1.

3. Azərbaycan diasporu [Mətn]: Tammətnli elektron materiallar məcmuəsi /Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası.- Bakı, 2005.-661 s.

4. Anar. Azərbaycançılıq haqqında düşüncələr [Mətn] /Anar; Azərb. dilindən tərc. S.Məmmədzadə.- Bakı: Nurlan, 2003.- 90 s.

5. Cəfərov, N. Seçilmiş əsərləri [Mətn]: beş clddə /N.Cəfərov; elmi red. H.İmanov.- Bakı: Elm, 2007.- 328 s.

6. Cəfərov, N. Azərbaycanşünaslığın əsasları [Mətn] /N. Cəfərov.-Bakı: Pedaqogika, 2005.-256 s.

7. Cəfərov, N. Azərbaycan: Dil, ədəbiyyat və mədəniyyət [Mətn] /N. Cəfərov.-Bakı: Bakı Universiteti, 2001.- 78 s.

8. Çobanov, M. Azərbaycanşünaslığın əsasları [Mətn] /M.Çobanov.- Bakı, 2004.-36 s.

9. Əhmədov, M. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının ölkəşünaslıq və diyarşünaslıq fəaliyyəti [Mətn] /M.Əhmədov, Z.İsmayılov; //Kitabxanalar milli mədəniyyətin dirçəliş resursudur=Библиотеки-как ресурс национально-культурного возрождения.- Bakı, 2011.-S.89.

10. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi [Mətn] /elmi red. və ön sözün müəllifi R. Mehdiyev; müəllif-tərtibçi S.Xəlilov.- Bakı: Azərbaycan Universiteti, 2002.- 232 s.

11. Xəlilov, B. Türkologiyanın intibah dövrü [Mətn]: dərs vəsaiti /Buludxan Xəlilov; red. H.Mirzəyev; rəyçilər V.Əliyev və b.- Bakı: Adiloğlu, 2001.-173 s.

12. Şəmsizadə, N. Azərbaycançılıq [Mətn]: [Azərbaycan xalqının milli ideologiyası] /Nizaməddin Şəmsizadə; red. K.Talıbzadə.-Bakı: Nurlar, 2006.-192 s.

13. Ulusel, R.C. Heydər Əliyev və Azərbaycan, Atatürk və türk dünyası: Nizami Cəfərovun elmi araşdırmalarında [Mətn] /C.Rahid Ulusel; AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu; elmi red. Y.Rüstəmov.- Bakı: Elm, 2004.- 148 s.

14. Vəliyeva, S. Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi: Məsələnin qoyuluşuna dair [Mətn] /S.Vəliyeva; elmi red. Y.Qarayev.- Bakı: Azərbaycan Universiteti, 2002.- 140 s.

15. Yusifov, M. Azərbaycançılıq [Mətn] /M.Yusifov.- Bakı: Elm və təhsil, 2010.- 132 s.

16. Yusifov, M. Nizamidə Azərbaycançılıq [Mətn] /M.Yusfov.- Bakı: Elm və təhsil, 2012.-180 s.

www.anl.az
www.azertag.com
www.bsu.edu.az
www.d-a-k.org
www.heydar-aliyev-foundation.org
www.muallim.edu.az
www.mct.gov.az
www.ndu.edu.az
www.president.az
www.preslib.az
www.science.gov.az
www.strategiya.az

# Mündəricat

Giriş ........................................................................................ 3
Heydər Əliyev və azərbaycançılıq ideyası ................................ 6
Kitabxanalarda Heydər Əliyev irsinin və
azərbaycançılıq ideyasının təbliği ........................................... 12
Nəticə ...................................................................................... 37
Əlavələr ................................................................................... 39
Ədəbiyyat ................................................................................ 57

**Kitabxanalarda Heydər Əliyev irsinin və azərbaycançılıq ideyasının təbliği**

(metodik tövsiyələr)

***Nəşriyyat redaktoru***: *Mehriban Cəfərova*

**Ünvan: AZ-1000 Bakı şəh., Xaqani küç. 29;**
**E-mail: contact@anl.az;**
**URL: www.anl.az**

M.F.Axundov adına Azərbaycan
Milli Kitabxanasının mətbəəsində
ofset üsulu ilə çap olunmuşdur.
Sifariş: 20
Çapa imzalanmışdır: 03.06.2013
Tirajı: 150
Pulsuz